

## Baş nazir “Müharibə veteranı” adının verilməsi qaydasına dəyişiklik etdi

*”Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnaməyə” dəyişiklik edilib. Unikal.org-un xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara dəyişikliklə Əsasnamənin ”Müharibə veteranları” hissəsinə yeni bənd əlavə edilib. Yeni bəndə əsasən, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Ordusunun hərbi qulluqçularına münasibətdə.*

Səh.2



## Bütün yollar Hacıbala Abutalıbova aparır...


# UNİKAL

№37 (2075) 8 oktyabr 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru


Səh.9



## Azərbaycanın regionda güclənməsi narahatlıq yaradır

## Sabiq merlə bağlı ilginc ittihamların ardı-arası kəsilmir

*Uzun illər Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) aparat rəhbəri olmuş Rasim Quliyev Bakının Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi-141 ünvanında yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi sayılan yaşayış binasının sökülməsi və yerində hündürmərtəbəli binanın inşası üçün “FF-2011” şirkətinə sərəncam verməkdə ittiham olunur. Lakin bu tikinti şirkətinin rəhbəri Tamilla İbrahimova oktyabrın 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində dindirilərkən bildirib ki, Rasim Quliyevi tanımayıb, ilk dəfə məhkəmədə görür! Bəli, bəli, ilk dəfə, özü də məhkəmədə! Şirkət sahibi həmçinin əlavə edib ki,dəfələrlə Bakı şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbovla görüşdüyünü deyib.*

Səh.6

## “İran Azərbaycanı bu cür iddialarla zəiflədə, təkləyə bilməz”



*Milli Cəbhə Partiyasının (MCP) sədri, millət vəkili Razi Nurullayev “Unikal” qəzetinə müsahibə verib. Onunla söhbətə son günlər gərginləşən Azərbaycan-İran münasibətləri barədə sualla başladıq:*

Səh.4

## Azərbaycanda ərzağın qiyməti bu tarixədək sürətlə artacaq



*Uzun müddətdir, ölkədə qida və qeyri-qida sektorunda qiymətlərdə artım müşahidə olunur. Ən çox bahalaşma isə ərzaq məhsullarındadır. Belə ki, cari ilin əvvəllində 2 manata təklif olunan duru yağın qiyməti 4 manatdan yuxarı, 50 qəpiyə təklif olunan kartof 70-80 qəpiyə, kiloqramı 80 qəpiyə...*

Səh.3

## İctimai şüralar ictima nəzarəti təmin edə bilirmi?



*Dövlətdən maliyyələşən qurumlarda şəffaflığın təmin olunması üçün ictimai nəzarətin olması vacibdir. İctimai nəzarət ilə bağlı ölkəmizdə son illər əhəmiyyətli dönüş hiss olunur. 2013- cü ildə “İctimai iştirakçılıq haqqında qanun”un qəbulundan sonra tədricən mərkəzi, yerli icra orqanlarında ictimai şuraların*

Səh.11

# Mətanətin gəlininin səs yazısı, videosu üzə çıxdı - Bütün gizlinləri açdı



***"Mətanət İsgəndərlinin oğlu təzə istədiyi qızla istirahət edir, Mətanət də Türkiyədə qızının yanında olur. Mənim uşağım isə qulluqçunun yanında qalır. Övladı anadan ayırmaq günahdır. Hamı deyir ki, bunu edən insan qansızdır".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Mətanət İsgəndərlinin gəlini Canana lent.az-a açıqlamasında deyib. O, açıqlamasında bir çox məqamlardan söz açıb:

"Hər dəfə məhkəməmiz uzanır. Nə səbəbə uzandığını bilmirəm. Haqq-ədalətin olacağına ümid edirəm. Biz elə ölkədə yaşayırıq ki, haqq-ədalət öz yerini tapacaq. Təsəlli olaraq özümü necə sakitləşdirəcəyimi bilmirəm. Bir ana olaraq mənə çox təsir eləyir. Əgər qanun varsa, övladlarım nəyə görə məndən ayrı qalmalıdır ki? Birinin 7, birinin 5, o birinin də 1 yaşı var. Onlara pis ana olmamışam. Hər zaman övladlarım üçün yaşamışam. Xalqımıza layiqli övlad yetişdirməyi düşünmüşəm. Mən başa düşə bilmirəm ki, Mətanət İsgəndərli özü bu həyatı yaşayıb, mənə də bu həyatı arzulayır. Çünki ayrılmadan öncə evdə söz-söhbətlər olanda mənə dedi ki, sənə mənim həyatımı yaşamağı arzu edirəm. Bu söz mənə çox təsir etdi. Övladlarına yaşatdığı zülmü mənim də övladlarıma çəkdirir. Mən heç zaman onlardan nəsə ummamışam. Heç vaxt deməmişəm ki, məni evinizə qeydiyyata alın. Hələ də ata evimdə qeydiyyatdayam. Onlar deyə bilməz ki, onlardan nəsə istəmişəm. Yalnız övladım üçün yaşayıram. Onlarla söz-söhbətim övladıma görə olub. Dedim ki, uşağa yaxşı müəllim tutaq.

Canana daha sonra bildirib ki, M.İsgəndərlinin oğlu ona zülümlər verib və ondan ayrılandan sonra başqa qadınla münasibətə başlayıb:

"İki övladımız var idi, yoldaşım mənə dedi ki, mən övlad istəmirəm, saxlaya bilmirəm. Mən də anamı itirmişdim, istəyirdim ki, qızım olsun. Mənim həyatda bacım da olmayıb. Həmdə istəmişəm ki, oğlanlarıma bacı olda olsun. Bundan başqa yoldaşım uşaqlara şiddət göstərirdi. Hirslənən kimi övladlarımı döyürdü. Anası da övladının tərəfini saxlayırdı. Heç bir sözümü yalan demirəm. Açıqlayıram ki, hər kəs bilsin. Mən 8 il nişanlı qaldım, həmin ərəfədə də mənə çox əzablar verdilər. Mətanət bunları gözəl bilir. Yenə də bağışladım, çünki Kərim mənə yalvardı, özünə qəsd eləmək istədi. Anam da xəstə oldu, dedilər ki, heç olmasa anan toyunu görsün. Məcburiyyətdən bu ailəni qurdum. Onlardan ayrı ev kirayələdim, bir il övladıma baxdım. Kirayənin pulunu da vermədilər. İndi 6600 AZN kirayə borcum qalıb. Uşağı məhkəmə qərarı olmadan məndən alıblar. Görmüşük ki, adamı 3 aya boşadarlar. Amma mənim bu məhkəmə işim hələ də uzanır. Niyə? Onlardan heçnə istəmirəm. Sadəcə mənə ev versinlər, övladımı kirayədə yox, normal evdə böyüdüm. Psixoloq olmadan övladlarımı danışdırdılar, fikirlərini yazdılar. Uşaqlarımı mənə qarşı öyrətdilər. Hələ biz məhkəməyə gedəndə dedilər ki, biz atamızı seçəcəyik. Biri var ki, kasıb olasan, heçnəyin olmaya, biri də var ki, hər şeylərin var. Amma hər şey Mətanət İsgəndərlinin adınadır. Oğlunun adına heçnə yoxdur. ( Kövrəlir ) Həqiqətən mənə ağır gəlir, uşağımı votsapla yığıram, görürəm ki, böyük övladım mənə baxmaq istəmir. Bu mənə təsir edir. Hər zaman mənlə bir yerdə yatan uşaqlar olublar. İndi uşağım qulluqçunun qucağında yatır. İnsan nə qədər qəddar olar ki, körpəni anadan ayırar. Mətanət İsgəndərlidən soruşuram ki, mən sizə neyləmişəm? O mənlə prinsip aparır, deyir ki, mənə əyilməlisən. Day düşünmür ki, bu mübarizədə körpələr əziyyət çəkir. Mən övladlarımsız qala bilmirəm".

Qeyd edək ki, Canana müğənninin oğlu Kərimlə ailəlidir. Cütlüyün 3 övladı var. Onlar boşanmaq üçün məhkəməyə müraciət edib. Hazırda övladları Cananadan alınıb.

## Almaz Ələsgərova 55 yaşını qeyd etdi



***Əməkdar artist Almaz Ələsgərovanın ad günü olub.***

Axşam.az xəbər verir ki, müğənni 55 yaşını qeyd edir. Özəl gününü yaxınları ilə birlikdə keçirən A.Ələsgərova fotolarını sosial şəbəkədə bölüşüb.

Qeyd edək ki, müğənninin iki qız övladı var. Onun böyük qızı Mədinə ailəlidir və İsveçrədə yaşayır. İfaçı eyni zamanda Akademik Musiqi Teatrında çalışır.



## Keçmiş arvadı Nazpərinin oğluna xəyanət edib?

***Xalq artisti Nazpəri Dostəliyeva dünyasını dəyişən oğlu Əlinin şəxsi həyatı ilə bağlı sirrləri açıb.***

"1 dəqiqə" verilişində qonaq olan müğənni övladının uzun müddət əvvəl boşandığını deyib. Bildirilib ki, oğlu Əliyə xəyanət edilib: "Əlinin ailəsində problem oldu, onlar boşandılar. Qisas yoxdur, bu haqda danışmaq istəmirəm. Səbəbsiz heç nə olmur. Tamerlanım (nəvəsi - red.) var... Əli dedi, ana, haqqını mənə halal et. Bilirdi daxilən əzab çəkirəm. Tamerlanı sənə tapşırıram, onu heç kimin, hətta anasının əlində qoyma. Mən körpə övladı anasından ayırmaram. Böyüyüb gəlib nənəsini tapacaq".

Proqramda bildirilib ki, gəlini Tamerlanı ona vermək istəyir. Bu haqda deyilənə Nazpəri "Verməyib nə edəcək? Verməyə bilər, ana olasan gərək..." cavabını verib.

Bacısı Zeynəb Dostəliyeva isə "Qisas qiyamətə qalsın" sözlərini söyləyib.

## Tərana ilə Nüşabə Brilliantın evində görüşdülər

***Əməkdar artist Nüşabə Ələsgərli və müğənni Tərana Qumral ilk dəfə bir araya gəlib.***



Axşam.az xəbər verir ki, onlar birlikdə Xalq artisti Brilliant Dadaşovanın evinə yollanıb. İfaçılar birlikdə çəkilən şəkillərini paylaşaraq, Dadaşovanın ad gününü təbrik etməyə yollandıqlarını yazıblar.

Fotoda diqqət çəkən məqam isə Təranə ilə Nüşabənin səmimi görüntüsü olub. Belə ki, sənətçilər uzun müddət küsülü olub. Buna səbəb isə Təranə ilə Nazənin və Könül Kərimova ilə T.Qumralın küsülülüyüdür.

Hətta N.Ələsgərli bir neçə il əvvəl Nazəninlə və K.Kərimova ilə rəfiqə olduğu üçün T.Qumralla münasibəti olmadığını deyib. "Salamımız var. Küsülü deyilik. Amma nə evini tanıyıram, nə də evimi tanıyır. Dost deyilik. Tonla çörək kəsdiyim qadın var, onun xatirinə Təranə ilə verilişə çıxmaq istəmədim. Elə bilərdi ki, onu qıcıqlandırıram" deyə, o, qatıldığı verilişdə söyləyib.

Qedy edək ki, Tərənə ilə Nazənin arasındakı mübahisə məhkəməyə qədər gedib çıxıb.

# Agentlik virusoloji ekspertizalar həyata keçirir

***Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun (AQTİ) nəzdində fəaliyyət göstərən Mərkəzi Fitosanitar Laboratoriyasının əsas fəaliyyət istiqaməti bitki, bitkiçilik məhsulları və karantin nəzarətində olan materiallarda zərərli orqanizmlərin aşkarlanması və diaqnostikasından ibarətdir.***

Unikal.org xəbər verir ki, laboratoriya Azərbaycan Respublikasının ərazisinə başqa dövlətlərdən karantin tətbiq edilən zərərli orqanizmlərin daxil olmasının və yayılmasının qarşısının alınması, etibarlı sertifikatlaşdırma sisteminin dəstəklənməsi ilə ölkədə istehsal olunmuş bitki və bitkiçilik məhsullarının beynəlxalq bazarlara çıxışına dəstək verilməsi, eləcə də ölkə ərazisində fitosanitar sabitliyin təmin edilməsində mühüm rol oynayır.

Müasir maddi-texniki bazaya və peşəkar kadr potensialına malik olan Mərkəzi Fitosanitar Laboratoriyada entomoloji, herboloji, fitohelmintoloji, mikoloji, bakterioloji və virusoloji ekspertizalar həyata keçirilir.

Laboratoriyanın Karantin Ekspertiza Bölməsində entomoloji, herboloji və fitohelmintoloji istiqamətli sınaqlar aparılır. Entomoloji ekspertiza zamanı bitki, bitkiçilik məhsulları və digər karantin nəzarətində olan materiallarda zərərverici həşəratların və gənələrin, herboloji sınaqlar zamanı alaq otu toxumlarının, fitohelmintoloji müayinələr zamanı isə fitopatogen nematodların və ya onların sistalarının aşkarlanması, zərərli orqanizmlərin morfoloji və morfometrik əlamətlərinə əsasən növ mənsubiyyətinin təyin olunması həyata keçirilir.

Bitkilər üçün ciddi təhlükə yaradan göbələk, bakteriya və virus mənşəli bir sıra xəstəliklər onların məhsuldarlığını aşağı salmaqla yanaşı, ixrac imkanlarını da ciddi şəkildə azaldır. Bu istiqamətdə laboratoriyanın Fitopatologiya və Genomolekulyar Diaqnostika Bölməsində bitki və bitkiçilik məhsullarında patogenlərin aşkarlanması və identifikasiyası üçün mikoloji, bakterioloji, virusoloji (virus və viroid) sınaqlar və GMO təyini həyata keçirilir. Fitopatoloji ekspertiza zamanı göbələk və bakteriya mənşəli xəstəlik törədicilərinin təbii substratdan ayrılması və qida mühitlərinə əkilməsi, müasir optik cihazlardan istifadə olunmaqla morfoloji və morfometrik əlamətlərə əsasən xəstəlik törədicilərinin aşkarlanması aparılır. Bakteriya və virus mənşəli bitki xəstəliklərinin identifikasiyası zamanı İmmunoferment analizi, Real Zaman Polimeraz Zəncir Reaksiyası kimi metodlardan istifadə edilir ki, bu da diaqnostikanın daha dəqiq və qısa zamanda aparılmasına imkan verir.

AQTİ-nin Mərkəzi Fitosanitar Laboratoriyasında fitopatogen zərərli orqanizmlərin diaqnostikasının aparılması ilə yanaşı, Gene lab kabinində "Montania 4896" Real Zamanda PZR deteksiya sistemindən istifadə edilməklə bitki və bitkiçilik məhsullarında geni dəyişdirilmiş orqanizmlərin aşkarlanması həyata keçirilir.

Qeyd edək ki, AQTİ-nin Mərkəzi Fitosanitar Laboratoriyası AZS ISO/IEC 17025:2009 "Sınaq və kalibrləmə laboratoriyalarının səlahiyyətliliyinə ümumi tələblər" standartı üzrə akkreditasiya olunub.

# Bakıda 50 manat verməyən şagirdlər dərsə buraxılmadı

***Paytaxtdakı Texniki-Humanitar Liseyində şagirdlərdən 50 manatdan pul yığılması ilə bağlı iddia yayılıb.***

Unikal.org xəbər verir ki, bu barədə sosial şəbəkələrdə məlumat paylaşılıb.

Bildirilib ki, direktor Kəmalə Mirzoyeva hər ay 50 manat gətirməyəcək şagirdin məktəbə buraxılmayacağı barədə xəbərdarlıq edib. Pulun hansı məqsədlə yığıldığı bilinmir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən Oxu.Az-ın sorğusuna cavab olaraq bildirilib ki, Texniki-Humanitar Liseydə sözügedən məsələ ilə bağlı müvafiq araşdırma aparılır: "Araşdırmanın nəticələri barədə ictimaiyyətə əlavə məlumat veriləcək".

"Məktəbin, müəllimin fəaliyyətinə uyğun olmayan hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılır", - deyə idarədən qeyd edilib.

# Əhəd Abıyev yeni şöbə müdiri təyin etdi

***Daşkəsən Rayon İcra Hakimiyyətində yeni təyinat olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı icra başçısı Əhəd Abıyev əmr imzalayıb.

Əmrə əsasən, Məmmədəliyev Ruslan Aslan oğlu Daşkəsən RİH-nin hüquq şöbəsinin müdiri vəzifəsinə təyinat alıb.

***Murad İbrahimli***

# Ziya Məmmədovun ayaq açan, ancaq yerimayən yalanı...

## Həftənin replikası: özü "güc-bəla ilə dolanan" eks-nazirin oğlu 400 min dollarlıq avtomobili necə sürür?

***Bu ilin əvvəllərində, fevral ayında sabiq nəqliyyat naziri Ziya Məmmədovun unikal.org saytına verdiyi bir açıqlama gündəmə bomba kimi düşmüşdü.***

Niyə də düşməsin?

Eks-nazir həmin açıqlamasında hazırda kənd təsərrüfatı işləri ilə məşğul olduğunu demişdi. Ziya müəllimin sözlərinə inansaq, Ucardakı evində yaşayır, əkibbecərir: "Artıq mənim başqa fəaliyyət növüm yoxdur. Rayonda arpa, buğda, yonca əkirəm. Mal-qaram var, dolanmaq lazımdır. İndiki dövrdə dolanmaq asan deyil…"

İndiki dövrdə dolanmağın asan olmadığını söyləyən Ziya müəllimin sözləri ictimaiyyət arasında ciddi ironiya hədəfinə çevrilmişdi, çünki adamlara inandırıcı görünməmişdi. Yüksək vəzifələr tutduğu uzun illər ərzində adı daim korrupsiyada hallanan, fantastik sərvəti barədə saysız-hesabsız faktlar dolaşan Məmmədovun bu gün guya mal-qara, arpabuğda ümidinə qalması barədə söylədikləri təbii ki, səmimi qarşılana bilməzdi.



Uzağa getməyək, elə bu yaxınlarda onun adı Kanadaya məxsus "Bombardier Transportation" şirkətinin İsveçdəki törəmə şirkətinin keçmiş menecerinə qarşı başlanan cinayət işində keçirdi - o, nə az, nə çox, düz 100 milyonluq rüşvət almaqda günahlandırılırdı. Belə ki, 2013-cü ildə Bakını Gürcüstan sərhədi ilə birləşdirən dəmir yolunun bir hissəsini siqnal avadanlığı ilə təchiz etmək üçün keçirilən tenderdə "Bombardier"in başçılıq etdiyi konsorsium qalib gəlib. Şirkət meneceri Tomas Bimerə 2013-cü ildə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə bağlanmış müqavilə üzrə azərbaycanlı məmurlara "otkat" verdiyi barədə rəsmi ittiham irəli sürülüb. Tomas Bimer xüsusilə ağırlaşdırılmış hallarda rüşvətlə ələ almada ittiham olunur. Cinayət işi artıq yekunlaşıb və Tomas Bimer tezliklə məhkəmə qarşısına çıxarılacaq. Prokurorlar bildirirlər ki, Azərbaycanda dəmir yollarına siqnalizasiya sistemlərinin quraşdırılmasını nəzərdə tutan 350 milyon dollarlıq müqavilədə "dəmir yollarının ən azından bir orta səviyyəli rəhbərinə" 100 milyon dollar rüşvət ödənilib.

Və yaxud yenə bu yaxınlarda Məmmədovla bağlı başqa bir ilginc ittiham ortaya çıxmışdı. Bildirilmişdi ki, onun vəzifədə olduğu dönəmdə Bakıdakı tunellərdən birinin inşasına fantastik məbləğdə - yarım milyon manatdan çox vəsait xərclənib!

Əslində bunlarda təəccüblü heç nə yoxdur: Ziya müəllim nazir olarkən kifayət qədər böyük məbləğdə büdcə pullarını xərcləmək səlahiyyətinə malik idi və xərcləyirdi də! Lakin həmin pulların böyük hissəsinin korrupsiya predmetinə çevrildiyi layihələrin keyfiyyətsiz icrasından hamıya yaxşı məlumdur. Məsələn, onmilyonlarla manata başa gələn və 25-30 illik istismar müddəti qoyulan yolların cəmi bir neçə ay sonra dağılmağa başladığını, təmirə dayandığını xatırlamaq kifayətdir.

Dediyimiz odur ki, illər uzunu fantastik məbləğdə dövlət vəsaitləri barədə sərəncam vermək hüququ olan və bu hüququndan korrupsiya maraqları üçün faydalanan eks-nazirin indi guya mal-qara, əkin-biçin ümidinə qalmasına inanmamaqda cəmiyyət tamamilə haqlı idi.

Və budur, indi də sosial şəbəkələrdə onun oğlu Anar Məmmədovun Londonda dəbdəbəli həyat sürdüyü barədə konkret faktlar sadalanır. Məsələn, məlum olur ki, oğul Məmmədov İngiltərə paytaxtında bahalı maşınlarla kef eləyir. Onun London ku?c?ələrində qiyməti 400.000 AZN olan Rols Royce su?rdüyü deyilir. Avtomobilin qeydiyyat no?mrəsi də diqqətçəkicidir: FI ANAR. Kec?ən il isə onun İngiltərə paytaxtında sürdüyü maşın 500.000 AZN qiyməti olan Lamborgini imiş!

Hələ onu demirik ki, eksnazirin oğlunun yaşadığı malikanənin dəyəri də bir neçə milyon manatla ölçülür. Hətta onun bir zamanlar 2 milyon 700 min funt sterlinqə aldığı mülkün dəyərinin hazırda 10 milyon funtadək bahalaşdığı barədə də iddialar var. Həmin iddialara görə, sözügedən mülk İngiltərə paytaxtının ən qiymətli ərazilərindən birində yerləşir.

Buradan belə çıxır ki, ata Məmmədov Ucarda dolana bilmək üçün min bir əziyyətə qatlaşır, mal-qara dalınca qaçır, əkin-biçinlə əlləşir, oğul Məmmədov isə yarım milyonluq avtomobilləri, milyonlarla manatlıq malikanəsi ilə həyatın dadını çıxarır. Belə bir absurda səmimi-qəlbdən inanmaq istəyən varsa, buyursun, inansın!

Bizə isə yalnız bunu yazmaq qalır: yalan hətta ayaq da aça bilər, ancaq heç bir halda yeriyə bilməz, uzaqbaşı axsayaraq getməyə çalışar və bir gün mütləq tappıltı ilə yerə sərilər...

***Sənan Mirzə***

# Azərbaycanın regionda güclənməsi narahatlıq yaradır



***44 günlük Vətən Müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması regionda yeni düzənin formalaşmasına səbəb olub. Çünki bu qələbə ilə Azərbaycan regionda qalib və qüdrətini sübuta yetirmiş bir güc kimi ortaya çıxdı. Eyni zamanda, Türkiyənin də daha geniş miqyasda regionun lider dövləti kimi söz sahibinə çevrilməsi, bir sıra proseslərə daxil olması, eləcə də Azərbaycanın yanında olduğunu bəyan edərək, Cənubu Qafqaza da ayaq basması bəzi qüvvələri narahat etməyə başlayıb.***

Maraqlısı odur ki, Azərbaycan bütün dünyaya, eləcə də region dövlətlərinə sülh çağırışları etdiyi bir məqamda, qonşu İrandan ölkəmizə qarşı qeyri-adekvat addımlar atılmağa başladı. Əslində, İrandan anti-Azərbaycan addımlarını ara-sıra hər zaman görürdük. Hətta müharibə ərəfəsi və müharibə dövründə də Ermənistana yardım tədbirləri davamlı olaraq edilirdi. Lakin Azərbaycanın qələbəsinə əminlik yaranandan sonra gecikmiş dəstək bəyanatları verildi. Təbii ki, həmin bəyanatların qeyri-səmimi olduğu son günlər İrandan gələn açıq və üstüörtülü mesajlarla sübut olundu. Lakin Azərbaycan dövləti öz təmkinini pozmadan qarşısındakı qüvvənin kimliyindən asılı olmayaraq adekvat cavabını verir. Prezident İlham Əliyevin son çıxışındakı mesajlar da bu təmkinli və sərrast cavabların tərkib hissəsidir.

Məsələylə bağlı fikirlərini bildirən Milli Məclisin üzvü Sahib Alıyev deyib ki, Prezident İlham Əliyev Serjik Sərkisyanla bağlı fikirlərini nə səbəbdən Suqovuşandan bildirdisə, İran rəhbərliyinə yönəlik açıqlamalarını da eyni səbəbdən məhz Araz çayı qırağından səsləndirdi. Onun fikrincə, molla rejiminə şapalaq effekti daşıyan həmən açıqlamalar təkcə Azərbaycanın hər bir vətəndaşının yox, həm də bütün, bəli, bütün azərbaycanlıların liderinin xəbərdarlığı idi ki, Ermənistandan da çox bizi gözləri götürməyənlər özlərini yığışdırsınlar: “Bu xəbərdarlığın ardından artıq bəzi addımlar atılıb və gələcəkdə 44 günlük savaş zamanı Arazın o tayında “Ayaz Girari”də radar sistemləri, dinləmə stansiyaları yerləşdirib Ermənistana kəşfiyyat məlumatları ötürən, digər yardımlar edən rejim üçün sürpriz xarakterli daha nələrsə də olacaq. İrandakı soydaşlarımız da yaqin gözəl anlayırlar ki, fars-molla rejimi Azərbaycan əleyhinə etdiyi əməlləri guya İsrailin regionda varlığıyla əlaqləndirərkən özlərinə xas məkrə və riyakarlığa yol verirlər. Hətta tutaq ki, onlar deyən kimidir, israillilər Azərbaycanda İran sərhəddi boyunca at oynadırlar, bəs onda rəsmi Tehran birinci Qarabağ Savaşı zamanı niyə Ermənistanı hərtərəfli dəstəkləyirdi. Xatırladım ki, o vaxt həmən İranın yaratdığı Hizbullahın ilk baş katibi Şeyx Sübhi sözü gedən ölkənin xarici işlər nazirindən ”Nədən müsəlmanların yaşadığı, üstəlik şiələrin çoxluq təşkil etdiyi Azərbaycana yox, xristian Ermənistana yardım edirsiniz” sualına aldığı cavabdan sonra üzlərinə tüpürərək onlarla yollarını ayırmışdı. Çünki ona verilən cavab belə idi ki, Türkiyənin regionda güclənməməsinə görə belə edirlər və edəcəklər”.

Millət vəkili onu da qeyd edib ki, rəsmi Tehranın Güney Azərbaycan üzərindən Naxçıvana hərbi təyinatlı yük daşıyan təyyarələrin uçuşuna qadağa qoyması, nə muxtar respublikanın təhlükəsizliyi, nə də qardaş adlandırdıqları Ermənistana dəstək baxımından nəyisə dəyişir: “Çünki birincisi, indiki potensialıyla da Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu təkbaşına belə Ermənistanı yer üzündən silmək gücündədir. Əgər molla qardaşları haylara əvvəlkindən daha artıq yardım etməyə, yəni onlarla çiyin-çiyinə savaşmağa çalışsalar, ortada həm ikitərəfli, həm də beynəlxalq anlaşmayla Naxçıvanın təhlükəsizliyindən sorumlu olan Türkiyəmiz var. Üstəlik, biz İranı yaxşı tanıdığımızdan indiyə kimi də hərbi təyinatlı yüklərin əksəriyyətini Naxçıvana məhz Gürcüstanla Türkiyə üzərindən göndərirdik. Yeri gəlmişkən, Gürcüstan İran maşınlarının quru yolla öz torpaqlarından keçməsini dayandırıb. Molladüznalar hazırda bununla bağlı möhkəm şivən qoparıblar”.

Qeyd edək ki, dünən İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiani Moskvada rusiyalı həmkarı Sergey Lavrovla görüşüb. Rusiyanın xarici işlər naziri iranlı həmkarıyla görüşdən əvvəl ABŞ dövlət katibi Entoni Blinkenlə telefonla danışıb. Lavrov bu yolla Tehranla Vaşinqton arasında vasitəçi olmağa çalışıb. Rusiya İranın nüvə proqramıyla bağlı yeni sazişin imzalanmasında maraqlıdır.

Buna baxmayaraq, İran prezidenti İbrahim Rəisi və onun mühafizəkar komandası yeni nüvə sazişinin imzalanması üçün Vaşinqtona şərtlər irəli sürüblər. Bu şərtlərdən əsası İrana qarşı sanksiyaların tamamının ortadan qaldırılmasıdır. Vaşinqton buna hazır deyil. Ona görə də yeni nüvə sazişinin imzalanması bu il də baş tutmaya bilər.

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirib ki, İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Moskvada Azərbaycandan da şikayət edib: “Hüseyn Əmir Abdullahian Moskvada jurnalistlərə ilk açıqlamasında bunları deyib: “İran bölgədə sərhədlərin dəyişdirilməsinə, terrorçuların və sionistlərin varlığına Rusiyanın da kəskin reaksiya verəcəyini gözləyir”. Aydındır ki, İranın xarici işlər naziri “sərhədlərin dəyişdirilməsi”, “terrorçular” və “sionistlər” dedikdə Azərbaycanı nəzərdə tutur. Azərbaycan işğal altındakı torpaqlarını azad edib və Ermənistanla sərhədə çıxıb, Gorus-Qafan yolunun 21 kilometri nəzarətə götürülüb. Tehran bunu “sərhədlərin dəyişdirilməsi” kimi qiymətləndirir. Halbuki, Azərbaycan özünə aid olanı götürüb. Maraqlıdır ki, Ermənistanın özü Gorus-Qafan yolunun 21 kilometrinin Azərbaycana məxsus olduğunu etiraf etsə də, Tehran dirənib ki, “sərhədlər dəyişdirilməməlidir”.

Tehran müharibə günlərində düşmən saydığı Qərb ölkələrinin bəzi mərkəzlərinə qoşularaq Azərbaycan tərəfdən “terrorçuların” savaşdığını səsləndirmişdi. Müharibədən sonra Qərbdə və Rusiyada “terrorçu” mövzusu unudulsa da, Tehran bu “mövzunu” yenidən diriltməyə və Azərbaycanın əleyhinə aktuallaşdırmağa çalışır. Nəhayət “sionistlər” mövzusuna gəldikdə, Tehran Azərbaycanda İsrail izi axtarmaqda davam edir”.

Politoloq qeyd edib ki, Rusiya Azərbaycanla Ermənistan arasında sərhədin müəyyənləşdirilməsinə etiraz etmir: “Əksinə, bu mövzuyla bağlı təkliflərini həm Bakıya, həm də İrəvana göndərib. Tehran isə Moskvaya demək istəyir ki, “sərhəd toxunulmazdır və işğaldan əvvəlki vəziyyətində” qalmalıdır. Bunun reallıqdan uzaq olduğunu Azərbaycan və Ermənistanla yanaşı Rusiya da anlayır. “Bölgədə terrorçular və sionistlər var” iddiasına gəldikdə, Tehran bu məsələdə də Kremli öz tərəfinə çəkə bilməyəcək. İsrail Rusiyaya dost dövlətdir və Tehranın bu iki dövlətin münasibətlərinə zərər vurması nəticə verməyəcək. Keçmişdə Ermənistan rəsmiləri Moskvaya Azərbaycandan şikayət etməyə gedərdilər. İndi onlara İran rəsmiləri də qoşulublar. Ancaq ermənilərin şikayətləri işə yaramadığı kimi iranlıların da şikayətlərinin Tehran üçün heç bir faydası olmayacaq. Rusiya-Azərbaycan münasibətlərində suallar olsa da, Kreml başqalarının saxta ittihamları əsasında Azərbaycanla münasibətləri gərginləşdirməyəcək”.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, deputat Nəsib Məhəməliyev bildirib ki, İran tərəfindən Azərbaycanla və onun ayrılmaz hissəsi olan Naxçıvan arasında hava əlaqəsini məhdudlaşdırılması nə beynəlxalq normalara, nə də ki, qonşuluq prinsiplərinə uyğun deyil. Onun fikrincə, qərəzli yanaşma olmaqla bərabər, iki ölkə arasında münasibətlərə ciddi zərbə vurur.

Deputatın sözlərinə görə, onsuz da İran uzun illərdir ki, beynəlxalq maliyyə sanksiyaları üzündən əziyyət çəkir: “Ermənistan istisna olmaqla, dünyanın əksər ölkələri, qonşuları ilə münasibətləri gərgin olaraq qalır. ABŞ-ı və bəzi müttəfiqləri, nüvə silahı əldə etmək istəyən İranı hər an vurmaqla hədələyirlər. Belə bir vəziyyətdə, Azərbaycan kimi etibarlı qonşuya qarşı böhtanlar, təhdidlər, təzyiqlər heç cür başa düşülən deyil. Necə deyərlər; Olmayan yerdən od çıxarmaqla məşğuldurlar”.

N.Məhəməliyev bildirib ki, müharibədə əldə etdiyimiz qələbəni, cəmi 44 gün ərzində torpaqları işğaldan azad etməyimizi həzm edə bilməyən cənub qonşumuz bütün vasitələrlə Zəngəzur dəhlizinin açılmasına maneçilik törədir: “Sərhədlərimizə külli miqdarda qoşunları toplamaqla hərbi təlimlər keçirir, əzələ nümayiş etdirir. Niyə indiyə qədər keçirmirdi? Əvvəlcə mollaları, daha sonra isə yüksək rütbəli siyasətçiləri vasitəsilə mümkün olmayanı reallığa çevirmiş Müzəffər Ali Baş Komandana, Azərbaycan dövlətinə qarşı əsassız iddialar, iftiralar, xoşagəlməz fikirlər səsləndirirlər. Belə qonşuluq olmur. Ölkəmizin suveren ərazilərinə, Qarabağa qanunsuz yüklər daşınır. Ermənistana son 30 ildə olduğu kimi, hər tərəfli yardım göstərməsini başa düşdük. Özü bilər. Ancaq bir dəfə də olsa, məscidləri dağıdanlara, donuz otaranlara iradını bildirmədi. Özünü islam dövləti adlandıran, hər zaman islam həmrəyliyindən car çəkən mollaların əsl siması budur”.

Deputat onu da bildirib ki, İranın son hərəkətləri “soyuq müharibə”-nin başlandığı kimi qiymətləndirənlər də var: “Ancaq, isti fazaya keçməsi arzuolunan deyil. Belə olmaz, hesab edirəm, nə qədər ki, gec deyil, İran hərəkətlərinə düzəlişlər etməli, bizimlə hədə-qorxu dilində danışmamalı, Ermənistanın və Azərbaycanın daxili işlərinə qarışmamalı, sülh müqaviləsinin bağlanmasına, Zəngəzur dəhlizinin açılmasına mane olmamalıdır. Əks təqdirdə, körpülər tamamilə yana bilər və hər iki tərəf üçün acı sonluqla nəticələnər”.

***Z.Məmmədli***

# Prezident bu hərbçiləri təltif etdi



***Prezident İlham Əliyev Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularının təltif edilməsi haqqında sərəncam imzlaayıb.***

"Unikal"ın xəbərinə görə, sərəncamla NATO-nun Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasında Azərbaycan Respublikasını yüksək səviyyədə təmsil etmiş, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən şücaət və fədakarlıq göstərmiş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları təltif ediliblər:

**"İgidliyə görə" medalı ilə**

Abdullayev Cəsarət Ramazan oğlu - mayor
Gəncəliyev Həsən Altay oğlu - kapitan
Abduləzimov Əli Xanlar oğlu - tibb xidməti baş leytenantı
Hacıyev Pərviz Əskər oğlu - baş leytenant
İsmayılov Elmar Elnur oğlu - baş leytenant
Salahov Gündüz Vəliyəddin oğlu - baş leytenant
Yusifli Seymur Şəmistan oğlu - baş leytenant
Zeynalov Elvin Elman oğlu - baş leytenant
Quliyev İlkin Məstan oğlu - leytenant
Ağaliyev Kamran Məmmədağa oğlu - baş gizir
Seyidov Mirbağır Miryaqub oğlu - baş gizir
Ağayev Şəhram Hilal oğlu - gizir
Həşimov Sahil Nağı oğlu - gizir
Mahmudzadə Tural Nazim oğlu - gizir
Məhərrəmov Cahangir Çingiz oğlu - gizir
Hüseynov Vasif Vahid oğlu - baş çavuş
Məmmədov Vüqar Məmməd oğlu - əsgər
Musayev Rövşən Nail oğlu - əsgər
Rzayev Qafar Tofiq oğlu - əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Nəsirli Səməd Yaşılxan oğlu - baş leytenant
Saqizadə Məhəmməd Elman oğlu - baş leytenant
Abdunov Saleh Valeh oğlu - çavuş
Əcəmov Zaur Zabil oğlu - çavuş
Əliyev Vüsal Qurbanxan oğlu - çavuş
Həsənov Rusif Yusif oğlu - çavuş
Kərimov Alik Kərim oğlu - çavuş
Mirzəmətov Vadim Mihman oğlu - çavuş
Baxşiyev Elman Əlhüseyn oğlu - kiçik çavuş
Familzadə Əliheydər Ədalət oğlu - kiçik çavuş
Həziyev Pilağa Bəfalı oğlu - kiçik çavuş
Qəhrəman Elmir Elnur oğlu - kiçik çavuş
Musayev İsmət Cəlil oğlu - kiçik çavuş
Şabutov Şabut Sakit oğlu - kiçik çavuş
Paşayev Seymur Silduz oğlu - baş əsgər
Bayramov Ağabala Bəhram oğlu - əsgər
Əzizov Pərviz Qubad oğlu - əsgər
Muradov Zahid Məmməd oğlu - əsgər
Tahirov Çingiz Abdulla oğlu - əsgər
Tarıverdiyev Fariz Əfqan oğlu - əsgər.

# İnam Kərimovun səlahiyyətlərini artırıldı

***Prezident İlham Əliyevin bu gün dəyişiklik etdiyi "Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"yə əsasən, kənd təsərrüfatı nazirinin səlahiyyətləri artırılıb.***

Unikal.org xəbər verir ki, nazirə tabeli qurumların rəhbərləri ilə yanaşı, onların müavinlərini, struktur bölmə rəhbərlərini vəzifəyə təyin etmək və vəzifədən azad etmək, eləcə də digər işçiləri (tabeli qurumların strukturuna daxil olmayan hüquqi şəxslərin yalnız rəhbərləri) vəzifəyə təyin etmək və vəzifədən azad etmək səlahiyyəti verilib.

# İlham Əliyev Putinə zəng etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Dövlətimizin başçısı Rusiya Prezidentini ad günü münasibətilə təbrik edib, ona ölkənin inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları Azərbaycan-Rusiya ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əmin olduqlarını bildirib, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Telefon söhbəti zamanı bölgədəki vəziyyət müzakirə edilib.

# Baş nazir "Müharibə veteranı" adının verilməsi qaydasına dəyişiklik etdi

***"Müharibə veteranı, silahlı qüvvələr veteranı və əmək veteranı adlarının verilməsi qaydası və şərtləri haqqında Əsasnaməyə" dəyişiklik edilib.***

Unikal.org-un xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara dəyişikliklə Əsasnamənin "Müharibə veteranları" hissəsinə yeni bənd əlavə edilib. Yeni bəndə əsasən, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Ordusunun hərbi qulluqçularına münasibətdə müharibə veteranı adının və vəsiqəsinin, habelə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən şəxsin müharibə veteranı olmasına dair arayışın verilməsi üçün maraqlı şəxs "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə də müraciət edə bilər.

Baş nazirin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"na dəyişiklik edilməsi barədə digər qərarı ilə isə həmin qaydalara 4.1-ci bəndinə aşağıdakı məzmunda beşinci abzas əlavə edilib: "Müdafiə Nazirliyinin zabit və gizir heyətinə münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi, habelə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən digər hərbi qulluqçulara (əsgər, matros və çavuş heyəti) münasibətdə şəhid və şəhid ailəsi hesab edilməsi üçün arayışların verilməsi məqsədilə maraqlı şəxs "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə də müraciət edə bilər."



# MEDİA-da regionlarda nəşr olunan qəzetlərin baş redaktorları ilə görüş keçirildi

***Medianın İnkişafı Agentliyində (MEDİA) regionlarda nəşr olunan qəzetlərin baş redaktorları ilə Zoom platforması üzərindən onlayn görüş keçirilib.***

"Region mətbuatının mövcud vəziyyəti və perspektiv inkişaf hədəfləri" mövzusunda keçirilən görüşdə Media subyektləri və jurnalistlərlə iş, media dəstək layihələri departamentinin direktoru Rüstəm Əhmədov MEDİA Agentliyinin əsas fəaliyyət istiqamətlərinin Azərbaycanda medianın inkişafının dəstəklənməsi, bu sahədə institusional quruculuq işlərinin davam etdirilməsi, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması olduğunu bildirib.



Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli vurğulayıb ki, indiyədək region mətbuatından Agentliyə daxil olan müraciətlərə baxılıb, regionlarda nəşr olunan qəzetlərin baş redaktorları ilə intensiv ünsiyyət qurularaq problemləri əhatəli şəkildə müzakirə olunub. Qeyd olunub ki, konfransın əsas məqsədi mövcud çətinliklərin öyrənilməsi, təkliflərin dinlənilməsidir.

Görüşdə çıxış edən "Kür" qəzetinin baş redaktoru Əminə Yusifqızı, "Mingəçevir işıqları" qəzetinin baş redaktoru Fərman Nəbiyev, "Aran" qəzetinin baş redaktoru Məhsəti Ağayeva, "Cənub xəbərləri" qəzetinin baş redaktoru Zahir Əmənov, "Yeni Tərtər" qəzetinin redaktoru Tofiq Yusifov və digərləri bölgə qəzetlərinin maddi-texniki bazasının gücləndirilməsinin, yaradıcılıq imkanlarının genişləndirilməsinin, region mətbuatına dövlət dəstəyinin zəruriliyini vurğulayıblar.

Strateji planlaşdırma departamentinin direktoru Rasim Bağırov tədbirdə səslənən təkliflərin təhlil ediləcəyini diqqətə çatdırıb. Qeyd edib ki, Medianın İnkişafı Agentliyi tərəfindən aidiyyatı qurumlarla görüşlər keçirilir, region mətbuatının inkişafının sürətləndirilməsi istiqamətində layihələr üzərində işlənilir.


Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500


# 3-cü doza vaksin bu şəxslərə vacibdir - RƏSMİ

***Son zamanlar koronavirus əleyhinə peyvəndin 3-cü dozasını almış yaşı 60-dan yuxarı şəxslərdə yoluxmadan qorunma 11 dəfə, ağırlaşmalardan qorunma isə 19 dəfə artıb.***

"Unikal" xəbər verir ki, bunu TƏBİB-in Xəstəliklərin kontrolu və profilaktikası departamentinin rəhbəri Yaqut Qarayeva deyib. O, dünyada buster (3-cü) doza tətbiq edən ölkələrdəki təcrübəni açıqlayıb.

"ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (CDC) məlumatına əsasən buster dozanın ilkin dozalardan 6 ay keçmiş və 65-dən yuxarı yaş həddi olan insanlara, 18-dən yuxarı yaş həddində isə yan xəstəlikləri mövcud, yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslərə vurulması tövsiyə edilir. Böyük Britaniyanın Milli Səhiyyə Xidmətindən (NHS) bildirilir ki, 50-dən yuxarı yaş həddi üçün, yaşı 16-dan yuxarı yüksək risk qrupları, həmçinin yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslər buster doza qəbul edə bilərlər. İsraildə isə 3-cü doza yaşı 60-dan yuxar vətəndaşlarla yanaşı, avqust ayından yaşı 12-dən yuxarı şəxslərə də tətbiq olunur.Tədqiqatlara əsasən, 3-cü doza almış yaşı 60-dan yuxarı şəxslərdə yoluxmadan qorunma 11 dəfə, ağırlaşmalardan qorunma isə 19 dəfə artıb".

TƏBİB rəsmisi qeyd edib ki, buster dozanın müsbət nəticəsi daha çox yaşı 65-dən yuxarı olan şəxslər qrupunda qeydə alınıb: "ÜST buster dozanın immunsupressiv hallarda və həssas qruplara tövsiyə edir. Buster dozanın tətbiqi ilə bağlı Türkiyədə, Amerika Birləşmiş Ştatlarında keçirilmiş tədqiqatlara əsasən, buster dozanın effektivliyi sübut olunub. Kanada da immunsupressiv hallarda və həssas qruplara buster dozanı tövsiyə edir".

# Azərbaycanda ərzağın qiyməti bu tarixədək sürətlə artacaq

## Natiq Cəfərli: "Təəssüf ki, yaxın aylarda bizi növbəti bahalaşma dalğaları gözləyəcək"

***Uzun müddətdir, ölkədə qida və qeyri-qida sektorunda qiymətlərdə artım müşahidə olunur. Ən çox bahalaşma isə ərzaq məhsullarındadır. Belə ki, cari ilin əvvəllində 2 manata təklif olunan duru yağın qiyməti 4 manatdan yuxarı, 50 qəpiyə təklif olunan kartof 70-80 qəpiyə, kiloqramı 80 qəpiyə təklif olunan şəkər tozu 1.20 AZN-ə, kiloqramı 2.50 AZN-ə olan uzun düyü 3 manata, qarabaşağın qiyməti 1.50 AZN-dən 1.90 AZN-ə, yumurtanın ədədi 13 qəpikdən 19 qəpiyə, kənd yumurtası 25 qəpikdən 30 qəpiyə, unun kiloqramı 50 qəpikdən 70 qəpiyə qədər artıb. Qiymət bahalaşması təkcə bunlarla bitmir. Mağazalarda demək olar ki, bütün qida məhsullarında davamlı olaraq qəpik-qəpik artım müşahidə olunur.***

Dövlət Statistika Komitəsinin hesablamalarına görə, 2021-ci ilin yanvar-iyul aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qiymətlərdə 4,5 faiz bahalaşma qeydə alınıb. Belə ki, 2021-ci ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki ilin iyul ayına nisbətən 6,4 faiz yüksək olub.

Qeyd edək ki, hazırda da qiymətlərdəki bu artım davam edir.



Maraqlıdır, məhsulların qiymətində olan bu davamlı artımın səbəbləri nələrdir?

Məsələ ilə bağlı Unikal.org-a açıqlama verən iqtisadçı Natiq Cəfərli deyir ki, ərzaqlarda qiymət artımının səbəbləri həddindən artıq çoxdur: "İlin əvvəlində dizel yanacağının birdən-birə 34 faiz artımı dalğavari şəkildə il ərzində qiymət artımına təsir edən əsas faktorlardandır. Dünya bazarında gedən proseslərin bu qiymət artımına təsiri çoxdur. Statistikaya görə, ilin əvvəlindən etibarən dünyada da ərzaq indeksi təqribən 10 faizdən çox artıb".

Xarici bazarlardan asılılığımız olduğu vurğulayan iqtisadçı deyib ki, özümüzü ərzaq məhsulları ilə tam təmin edə bilmirik: "Xarici bazarlardan yarıbayarı asılılığımız var. Logistikanın, daşımaların bahalaşması, xaricdə qiymətlərin artımı Azərbaycanın daxili bazarına da təsir göstərir. Həmçinin yerli istehsalın artımı ilə bağlı qarşıya qoyulan məqsədlərə çata bilmirik. Kənd təsərrüfatı məhsullarının ixracatı artdıqca yerli bazarda çatışmamazlıq olur və qiymətlərin artmasını müşahidə edirik."

Qarşıdakı dövrdə ərzaq məhsullarında qiymət artımı gözlənilirmi?

İqtisadçı bildirib ki, ən azı aprelmart ayına qədər bu bahalaşma davam edəcək. Hətta bəzi aylarda ciddi sürətlənmənin şahidi olacağıq: "Hər il yeni il qabağı dekabrda və Novruz bayramı öncəsi fevralın ortalarından novruz bayramına qədər sürətli qiymət artımı baş verir. Həmin artım bu il də baş verəcək. Çünki mösümdən dolayı yerli məhsulların bazardan çəkilməsi, xaricdən gələn məhsulların çoxalması, bayramlar öncəsi əhalidə olan tələbin artımı nəticə etibarilə qiyməti artıran əsas faktorlara çevriləcək. Təəssüf ki, yaxın aylarda bizi növbəti bahalaşma dalğaları gözləyəcək".

***Könül Oruc***

# Azərbaycanda 3-cü doza kimlərə vurulacaq?

***Koronavirusa qarşı vurulan peyvənddən bir müddət sonra maksimuma çatan qorunma səviyyəsi vaxt keçdikcə zəifləyə bilər. Dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə olunmuş nəticələrin təhlili bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli növlərindən qorunmağın ən effektiv yolu vaksinasiyadır.***



"Unikal" xəbər verir ki, bunu TƏBİB-in Xəstəliklərin kontrolu və profilaktikası departamentinin rəhbəri Yaqut Qarayeva bildirib. Onun sözlərinə görə, Azərbaycanda da yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə hər 2 doza vaksin almış insanlara 3-cü doza (buster doza) ilə peyvəndlənmələri tövsiyə edilir. Belə ki, buster doza immunitet reaksiyasını yenidən gücləndirməyi və bununla da peyvəndin effektivliyini artırmağı hədəfləyir. Buster dozanın istifadəsi yüksək risk qrupuna daxil olanlar üçün məqsədəuyğun hesab olunur və əhəmiyyəti daha çoxdur.

"Bütün dünyada peyvəndin buster dozanın tətbiqinə başlanılıb. ABŞ-ın Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (CDC) məlumatına əsasən buster dozanın ilkin dozalardan 6 ay keçmiş və 65 + yaş həddi, 18+ yan xəstəlikləri mövcud, yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslərə vurulması tövsiyə edilir.

Böyük Britaniyanın Milli Səhiyyə Xidmətindən (NHS) bildirilir ki, 50+ yaş həddi üçün, 16+ yüksək risk qrupları, həmçinin yüksək risk şəraitində yaşayan və ya işləyən şəxslər buster doza qəbul edə bilərlər. İsraildə isə 3-cü doza 60+ yaşlı vətəndaşlarla yanaşı, avqust ayından 12+ yaşlı şəxslərə də tətbiq edilir. Tədqiqatlara əsasən, 3-cü doza almış 60+ yaşlı şəxslərdə yoluxmadan qorunma 11 dəfə, ağırlaşmalardan qorunma isə 19 dəfə artıb. Buster doza müsbət nəticəsini daha çox 65+ qrupda qeydə alınıb".

Y.Qarayeva əlavə edib ki, Ümumdünya Səhiyyə Təşkilatı buster dozanın immunsupressiv hallarda və həssas qruplara tövsiyə edir: "Buster dozanın tətbiqi ilə bağlı Türkiyədə, Amerika Birləşmiş Ştatlarında keçirilmiş tədqiqatlara əsasən, bu dozanın effektivliyi sübut olunub. Kanada da immunsupressiv hallarda və həssas qruplara buster dozanı tövsiyə edir. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi koronavirus infeksiyası əleyhinə hər 2 doza vaksin almış bütün tibb işçilərinin, yaşı 60-dan yuxarı olan əhalinin və immun sistemi zəif olanların 3-cü doza (buster doza) ilə peyvəndlənmələri tövsiyə edir".

# Ərdoğanla Putin arasında telefon danışığı oldu

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.***

Unikal.org xəbər verir ki, məlumatı TASS yayıb.

Bildirilib ki, prezidentlərə ikitərəfli əlaqələri və regional məsələləri müzakirə ediblər.

# Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə bağlı protokol imzalanıb

***Azərbaycan nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin başçılıq etdiyi nümayəndə heyəti İstanbulda keçirilən beynəlxalq 12-ci Nəqliyyat və Rabitə Şurası çərçivəsində Gürcüstan və Türkiyəndən olan həmkarları ilə Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin inkişafı məsələsini müzakirə edib.***

"Unikal" xəbər verir ki, bunu Rəşad Nəbiyev "Twitter" hesabında qeyd edib.

"Qardaş Türkiyədə beynəlxalq 12-ci Nəqliyyat və Rabitə Şurasında iştirak edirik. Tədbir çərçivəsində keçirilmiş toplantıda Azərbaycan, Gürcüstan və Türkiyə arasında Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin inkişafına dair üçtərəfli görüşün protokolu imzalandı", - deyə R.Nəbiyev əlavə edib.

# Həbs edilən xəstəxana direktorunun yerinə təyinat

***Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına yeni direktor təyin edilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bu vəzifəyə Cəsur Paşayev təyinat alıb.

Qeyd edək ki, bir müddət öncə Ağcabədi rayon Mərkəzi xəstəxanası Publik hüquqi şəxsin sabiq direktoru Fövzi Tahirova Cinayət Məcəlləsinin 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma), 311.3.2 (rüşvət alma təkrar törədildikdə) və 311.3.3 (külli miqdarda rüşvət alma) maddələri ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

***Murad İbrahimli***

# Bu rayonun təhsil şöbəsinin müdiri vəzifəsində azad edildi

***Salyanda şöbə müdiri öz ərizəsi ilə tutduğu vəzifədən azad olunub.***

Unikal.org xəbər verir ki, Salyan Rayon Təhsil Şöbəsinin müdiri, 1956-cı il təvəllüdlü Piriyev Xudaverdi Əliyusif oğlu öz ərizəsi ilə tutduğu vəzifəsindən azad edilib.

Həmin vəzifəyə 1973-cü il təvəllüdlü Dadaşova Razıgül Müseyib qızı təyin olunub.

Qeyd edək ki, X. Piriyev 5 ildən artıq idi ki, təhsil şöbəsinə rəhbərlik edirdi.

# FHN Bakıda qanunsuz tikinti işlərini dayandırıb

***Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində üzərinə düşən vəzifələrin icrasını davam etdirir.***

FHN-dən "Unikal"a verilən məlumat görə, agentliyin mütəxəssisləri tərəfindən Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsində vətəndaş Xalıqov Elşad Əzim oğlu tərəfindən müvafiq sənədlər olmadan qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktı aşkar edilib.

Göstərilən məsələ ilə əlaqədar FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində qanunsuz tikinti işləri dayandırılıb və obyekt nəzarətə götürülüb.




## Siyasi partiya rəhbərləri Şuşaya getdilər

***Siyasi partiya təmsilçilərinin Şuşaya səfəri başlayıb. Bu barədə "Unikal"a Ümid Partiyasının sədr müavini Tamilla Qulami məlumat verib. O qeyd edib ki, partiya təmsilçiləri artıq yola düşüblər:***

"Səfərə 50-dən çox siyasi partiya nümayəndəsi qatılıb. Ümumilikdə, səfərdə 80-90 nəfərə yaxın adam iştirak edir. Siyasi partiya rəhbərləri ilə birlikdə politoloqlar, media nümayəndələri də bizimlədir.

Bildiyiniz kimi, Şuşa səfəri Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşəbbüsü ilə planlaşdırılmışdı. Hələlik səfər planına görə, Şuşadakı tarixi və dini yerləri ziyarət edəcəyik. Daha ətraflı məlumatları şəhərə çatdıqdan sonra dəqiq paylaşa biləri̇k".

Xatırladaq ki, bu, Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin rəhbəri Ədalət Vəliyevin təşəbbüsü ilə azad edilmiş ərazilərə edilən növbəti səfərdir. Daha öncə siyasi partiya nümayəndələri Ağdam şəhərini ziyarət etmişdilər.

## "Azərbaycanla birgə hərbi təlimlər başqalarının əleyhinə deyil" - Çavuşoğlu

***"Türkiyə və Azərbaycan arasındakı münasibətləri heç kimsə poza bilməz. Boş yerə səy göstərməsinlər, enerji sərf etməsinlər".***

"Unikal" xəbər verir ki, bu fikirləri "Report"a Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

"Biz beynəlxalq hüquq normalarına uyğun olaraq Türkiyədə, Azərbaycanda hərbi təlimlər keçirə və əməkdaşlıq edə bilərik. Sadəcə, Azərbaycan deyil, Türkiyə də daxil olmaqla hər bir ölkə istənilən dövlətlə müxtəlif sahələrdə əlaqələr qura bilər. Əgər onların bizə zərəri yoxdursa, bu ölkələrə üzümüzü çevirib "siz niyə belə edirsiniz?" sualını vermirik.

Bizim də Azərbaycanla olan yaxın qardaşlığımız, münasibətimiz və iş birliyimiz, hərbi təlimlərimiz kiminsə əleyhinə deyil. Ona görə də kimsə boş yerə narahat olmasın. Bizim bu birliyimiz başqalarının əleyhinə olan bir qardaşlıq və həmrəylik deyil", - o bildirib.

# "İran Azərbaycanı bu cür iddialarla zəiflədə, təkləyə bilməz"

## Razi Nurullayev: "Onlar Ermənistandan başqa bir dövlət tapa bilməz ki, onu Azərbaycana qarşı istifadə edə bilsin"

***Milli Cəbhə Partiyasının (MCP) sədri, millət vəkili Razi Nurullayev "Unikal" qəzetinə müsahibə verib. Onunla söhbətə son günlər gərginləşən Azərbaycan-İran münasibətləri barədə sualla başladıq:***

***-Razi bəy, son günlər İrandan Azərbaycana qarşı sərgilənən mövqe birmənalı qarşılanmır. Münasibətlərin bu səviyyəyə gəlməsinə səbəb nədir?***

-Azərbaycan heç zaman heç bir qonşusuyla, eləcə də İranla münasibətlərin gərginləşməsində maraqlı olmayıb, həmçinin bu gün də. Sadəcə, bu gün İran rəsmilərinin Azərbaycana qarşı səsləndirdiyi ittihamların da heç bir əsası yoxdur. Ona görə də onlar normal olaraq Azərbaycan cəmiyyəti və hökuməti tərəfindən təpki ilə üzləşdilər. Bu gün İran Azərbaycanı ittiham edir ki, guya biz bəzi məsələlərdə İsraildən istifadə edirik, guya İsrail qoşunları Azərbaycandadır və s. Amma bununla bağlı heç bir fakt, sübut ortaya qoymurlar, qoya bilmirlər. Ola bilsin ki, camış fermasını nəzərdə tuturlar. İran boyda ölkə, belə çıxır ki, İsrail camışlarından qorxur? Gülməlidir.

Məsələ burasındadır ki, Azərbaycanla İran arasında münasibətlərin kökünə baxsaq, görərik ki, hələ Birinci Qarabağ müharibəsi zamanı da İran Ermənistanın yanında dayanmışdı. Din, əqidə qardaşlığımız, uzun illər birgə tariximiz, qonşumuz olan İran İslam Respublikası Azərbaycanı birmənalı müdafiə etmədi.



Lakin məscidlərdə donuz saxlayan, dini inancları təhqir edən bir dövlətə, Ermənistana qardaş deyir. Təbii ki, bu, Azərbaycan cəmiyyətini narahat edir. Birinci Qarabağ müharibəsi zamanı heç İsrail adı hallanmırdı, o zaman İran hansı ittihamla Azərbaycanı müdafiə etmədi? Nəyə görə Ermənistanın yanında dayandı, niyə Azərbaycana qarşı ikili standart ortaya qoydu? İran bu suallara cavab versə, bugünkü məsələlərin bir çoxuna aydınlıq gələr.

***- Prezident İlham Əliyev də son iki çıxışında İranla bağlı sərt mövqeyini ifadə etdi. Artıq birinci şəxs səviyyəsində reaksiya verilirsə, deməli, vəziyyət həqiqətən ciddidir, elə deyilmi?***

-Əlbəttə ciddi məsələlər və narahatlıqlar var. Amma, çox da narahat olmağa dəyməz. Burada əsas iki incə məqam var, birincisi odur ki, İran Azərbaycanı bu cür iddialarla zəifləde, təkləyə bilməz. Ona görə ki, bütün dünya bu məsələdə Azərbaycanı müdafiə edir. İran Ermənistandan başqa bir dövlət tapa bilməz ki, onu Azərbaycana qarşı istifadə edə bilsin. İkinci incə məqam isə ondan ibarətdir ki, Ermənistan hazırda bu iddialarda birmənalı olaraq, açıq sözlə İran tərəfini müdafiə edir. Bu isə Ermənistanı dünya dövlətlərinin, Avropa dövlətlərinin, İsrailin, ABŞ-ın gözündən salır. Bu cəhətdən də Azərbaycan üstün tərəfdir. Yəni, Ermənistan çox iyrənc bir oyunun içərisindədir. Bu oyun da Ermənistanı gözdən salır. Biz İranla gərginliyin olmasını istəməsək də, hazırkı məsələlərdə qazanan tərəf Azərbaycandır.

***-Belə bir məqamda ölkənin siyasi qüvvələri, müxalifət nə etməlidir?***

-Hər zaman demişəm, yalnız birlik. Xarici düşmənlərlə yanaşı, biz birlikdə olub daxildə olan milli satqınları aşkara çıxarmalıyıq, açıq və net olmalıyıq. Təəssüflər olsun ki, xeyli milli satqınlar var ki, onlar öz dövlətimizin müstəqilliyinə, uğurlarımıza kölgə salırlar. Onun üçün də siyasi və ideoloji birlik zəruridir. Bu birliyə qarşı çıxanlara qarşı sərt tədbirlər görülsün. Əlini daşın altına qoymaq istəməyənlər demək olar ki, başını digər düşmən qüvvələrin qarşısında əymək istəyir. O başları vurmaq lazımdır.

***-Razi bəy, Artıq 44 günlük Vətən müharibəsinin başlanmasından bir il ötür. Qələbədən sonrakı dönəmi qısaca necə xarakterizə etmək olar?***

-Qalib ölkəyik. Problemlər olmadı, yoxdur deyə bilmərik. Təbii ki, çatışmazlıqlar oldu müəyyən sahələrdə. Məsələn müharibə iştirakçılarına veteranlıq statusunun verilməsiylə bağlı çatışmazlıqlar hələ də qalmaqdadır. Müharibə iştirakçılarının işlə təmin edilməsiylə bağlı problemlər var. Bununla bağlı istər mediada, istər parlamentdə danışmışam, təkliflər vermişəm. Lakin ümumilikdə vəziyyəti müsbət dəyərləndirirəm. Özəlliklə işğaldan azad olunmuş ərazilərin bərpaquruculuq işləri yüksək səviyyədə və sürətlə aparılır. Həmin ərazilərdə hava limanları artıq fəaliyyətə başlayıb. Şəhid ailələrinə diqqət, qayğı var, onların sosial həyatının, güzəranının yaxşılaşdırılması istiqamətində yaxşı işlər görülür. Təbii ki, bu onların haqqıdır, onlar üçün nə edilsə azdır. Qazilərin müalicəsi bəzi xırda çatışmazlıqlar olsa da yüksək səviyyədə aparılır. Müharibədə əldə etdiyimiz üstünlük bu gün siyasət masasında da davam edir. Artıq dost da, düşmən də Azərbaycanın üstünlüyünü və haqlı olduğunu qəbul edir. Bunu Erməni rəsmilərin, məsələn Paşinyanın son günlərdəki çıxışlarından açıq aydın görmək olur. Və əmin olun ki, hər şey daha da yaxşıya doğru gedir.

***-Sizcə, tərəflər arasındakı yekun sülh sazişi hansı formada olmalıdır?***

-Əlbəttə ən önəmlisi Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüquq çərçivəsində olmalıdır. Biz hüquqi cəhətdən haqlı tərəfik. Ermənistan bunu qəbul etməli, Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımalı, məcburi köçkünlərimiz öz yurdlarına qayıtmalı, öncədən Qarabağda yaşamış ermənilər Azərbaycan vətəndaşı olmalı, Azərbaycan pasportu daşımalıdırlar. Təbii ki, Azərbaycanda yaşamaq istəyirlərsə. Əks halda, köçüb getsinlər Ermənistana. Biz bunu istəyirik, haqqımız olanı və bunu da savaş meydanında xalqımızın birliyi, biləyimizin gücüylə əldə etdik. İndi qalır düşmənin bunu rəsmən qəbul etməsi. Sülh sazişinin əsas forması bu olmalıdır. Və bundan sonra da Rusiya sülhməramlılarının fəaliyyətinə gərək qalmayacaq.

***-Cəmiyyətdə narahatlıq var ki, Xankəndi, Xocalı, Xocavənd və digər ərazilərimizlə bağlı qeyri-müəyyən vəziyyət hələ çox davam edə bilər. Bu barədə nə düşünürsünüz?***

-Narahatlığa heç bir gərək, əsas yoxdur. Bilirsiniz, hələ tam aydınlaşmayan məsələlər var, sülhməramlıların nəzarətində olan bəzi ərazilər var. Amma 44 gün ərzində işğal edilən torpaqlarımız azad edildi. Təsəvvür edirsiniz ? Biz axı Lələtəpənin azad edilməsini necə coşquyla bayram etmişdik. İndi bu boyda ərazi azad edilib, qanımızla, canımızla, birliyimizlə. Biz dünyanı heyrətə salaraq qələbə qazandıq.

Bəli, Xankəndi, Xocalı, Xocavənd, və digər ərazilərimiz də Azərbaycandır. Sadəcə, indi sülhməramlıların nəzarətində olan ərazilər var və orda iki yüz il əvvəl ora köçürülən ermənilər yaşayırlar. Onlar da seçim etməli olacaqlar, ya Azərbaycan vətəndaşlığını qəbul edib bizim pasportumuzla yaşayacaqlar, ya da çıxıb Ermənistana gedəcəklər. İndi bir az da səbr edək. Bu qələbənin qüruruyla yaşayaq. Biz qalib ölkəyik, biz Azərbaycan tarixində ilk dəfə işğaldan torpaq azad etmişik. Bu çox böyük şərəfdir, qürurdur, xoşbəxtlikdir. Bunu hiss edək, yaşayaq.

***Z.Məmmədli***

# Elman Rüstəmovdan Cahangir Əsgərova böyük şok...

## Mərkəzi Bank AZAL rəhbərinin ailə şirkətini niyə cərimələyir?

***Yola salmaq üzrə olduğumuz həftə yerli KİV Bakının mərkəzində dəbdəbəli butiklərə sahib olan "Gazelli Group" MMC-nin Azərbaycan Mərkəzi Bankı tərəfindən cərimələndiyi barədə məlumat yayıldı.***

Məlumatda bildirilirdi ki, pərakəndə ticarətlə məşğul olan "Gazelli Group" barəsində İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə tərtib edilən cərimə protokolu 6 oktyabr 2021-ci il tarixdə, Bakı Şəhəri Nəsimi Rayon Məhkəməsinə göndərilib.Bu maddə İXM-də valyuta tənzimi qaydalarının pozulmasına görədir.

Belə ki, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir. Sahibkar müqavilə bağlayaraq, xarici şirkətə ödəniş edib, sövdələşdiyi vaxt yox, 2 il müddət çərçivəsində malı həmin şirkətdən ya almalı, ya da ödədiyi maliyyə vəsaitini geri qaytarmalıdır. Bunlara əməl etmək mümkün olmadıqda isə sahibkarlara Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən, müqavilə məbləğinin 20-30 faizi civarında cərimə protokolu tərtib olunur.

Onu da deyək ki, "Gazelli Group" MMC-nin Azərbaycan Mərkəzi Bankı tərəfindən cərimələndiyi barədə yayılan xəbərə nə şirkət, nə də ölkənin baş bankı tərəfindən hər hansı münasibət bildirilməyib. Biz bu materialı çapa hazırlayarkən yayılan xəbər təsdiqlənməsə də, təkzib də olunmamışdı.

Qeyd edək ki, "Gazelli Group" 1999-cu ildə Zərifə Həmzəyeva tərəfindən təsis edilib. Z.Həmzəyeva isə banker.az tərəfindən öncəki il tərtib edilən siyahıya görə, ölkədə fiziki şəxs kimi ikinci ən böyük bank səhmdarıdır. Bundan başqa, o, "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) prezidenti Cahangir Əsgərovun həyat yoldaşıdır.Bu ilin yayında yerli mətbuat yazırdı ki, Azərbaycanda ən çox pulu olan qadın Zərifə Həmzəyeva hesab olunur. Zərifə Həmzəyeva "Premium Bank" ASC-nin əsas səhmdarıdır. Belə ki, bank səhmlərinin 84,5%-i Zərifə Həmzəyevaya məxsusdur. Bu isə o deməkdir ki, "Premium Bank" ASC-də Zərifə Həmzəyevaya məxsus 130,6 milyon manat var.



Onun təsisçisi olduğu "Gazelli Group" MMC-nin nizamnamə kapitalı isə 26,5 milyon manatdır.

İnternet resurslarından əldə etdiyimiz məlumatlardan belə aydın olur ki, Z.Həmzəyeva bu MMC-ni həyat yoldaşı C.Əsgərov AZAL-ın (ovaxtkı adı ilə "Azərbaycan Hava Yolları" Dövlət Konserni) rəhbəri vəzifəsinə təyin edildikdən (1996-cı il) cəmi üç il sonra yaradıb. "Azərbaycanın ilk təbii kosmetika istehsalçısı" hesab edilən şirkətin ayda 1 milyon ədəd məhsulun istehsalına şərait yaradan müasir avadanlıqlarla təchiz olunduğu vurğulanır.

Şirkətin 22 illik fəaliyyəti dövründə vacib aktiv inqridiyentlərə çoxsayda 20 patent aldığı və gündəlik istifadə üçün nəzərdə tutulmuş 500-dən çox adda məhsul ərsəyə gətirilib. Bunlar saç üçün şampunlar, balzamlar, maye və duru sabunlar, duş gelləri, kremlər, maskalar, losyonlar, otel məhsulları, məişət və sənayə kimyası məhsulları və s.-dir.

Yeri gəlmişkən, Cahangir Əsgərovun ailə biznesi xüsusilə son 10-15 ildə görünməmiş dərəcədə genişləndiyi, böyüdüyü halda AZAL borc bataqlığına yuvarlanıb, az qala hər il zərər edib. Hazırda bu dövlət şirkətinin ümumi borcu yüz milyonlarla manata bərabərdir.

Onu da deyək ki, bu ilin avqustunda Elman Rüstəmovun rəhbərlik etdiyi Mərkəzi Bankın 8 şirkətə qarşı cəza protokolu tərtib etdiyi barədə məlumat yayılmışdı. Bildirilmişdi ki, həmin şirkətlər barəsində tərtib edilən inzibati protokollar müvafiq olaraq qeydiyyat ünvanlarındakı rayon məhkəmələrinə təqdim edilib.

Həmin şirkətlər barəsində İnzibati Xətalar Məcəlləsinin valyuta tənzimi qaydalarının pozulmasına görə cəzanı nəzərdə tutan 430.4-cü maddəsi ilə tərtib edilən cərimə protokolu rayon məhkəmələrinə göndərilmişdi.

Siyahıda aşağıda adıçəkilən MMC-lərin adı var idi: "Navi" MMC, "Futales" MMC, Teymur Əhmədov adına "Aznar" QSC, "Lopart" MMC, "Avtotexno" MMC, "Göyçay-Şərab" Açıq Səhmdar Cəmiyyəti, "Tıfanı Ltd" MMC, "Ysm Auto Oil Ltd" MMC...

***Sənan Mirzə***

# Qonşularla gərginlik İranı siyasi və iqtisadi baxımdan geri salır

***İran demək olar ki, qonşu dövlətlərin əksəriyyəti ilə münasibətlərində problemlər yaşayır. Heç şübəsiz ki, bu onun regionda təcrid edilməsinə, müəyyən mənada baş verən müsbət iqtisadi dəyişiklik layihələrində iştirakına əngəl yaradır. İran bunları gözə alaraq nəticə çıxartmalıdır. Bu siyasətin sonunda uduzan tərəf İran olacaq".***

Bu fikirləri Bakı Dövlət Universitetinin dekanı Vüqar Ziferoğlu İranın qonşu dövlətləri ilə münasibətlərində problemlər yaşadığı barədə Modern.az-a danışarkən bildirib. Onun sözlərinə görə, münasibətlərin gərginləşməsi İrana çox ciddi iqtisadi və siyasi ziyan vuracaq: "İranın son aylarda açıq şəkildə aqressiv siyasət yürütməsi və eyni zamanda istər İran mediasında yayımlanan məqalələr, istər İran rəsmilərinin verdiyi aqressiv bəyanatlar heç də mehriban qonşuluq münasibətlərinə uyğun olmayan göstəricidir.



Mən düşünürəm ki, İran aqresiv ritorikanı bir kənara qoyub, daha çox qonşuları ilə o cümlədən Azərbaycanla səmimi və işgüzar münasibətlərin bərpa edilməsi istiqamətində səy göstərməlidir.

Ümumiyyətlə, hər bir ölkə üçün öz qonşuları ilə münasibətlərini daim yüksək səviyyədə saxlamalıdı.

Amerika Birləşmiş Ştatları ilə Vyana razışalmasından çıxmasından sonra İran iqtisadiyyatında son dərəcə ciddi tənəzzül yaşanır. İranla bağlı xəbərləri izləyərkən bunun canlı şahidi oluruq. İstər İran milli valyutasının məzənnəsini itirməsi, istər İranda kifayət qədər ciddi sosial problemlərin olması, istər işsizlik sayının günü-gündən artması. Qonşu dövlətlərlə münasibətləri belə kəskinləşdirməkdə İran daha çox iqtisadi və siyasi nöqteyi-nəzərdə geri düşə bilər.".

## Deputat NATO PA-nın sessiyasında iştirak edəcək

***Oktyabrın 8-dən 11-dək Portuqaliyanın Lissabon şəhərində NATO Parlament Assambleyasının (PA) 67-ci illik sessiyası keçiriləcək.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə Milli Məclisin deputatı, NATO PA-da nümayəndə heyətimizin üzvü Kamran Bayramov iştirak edəcək.

Toplantıda "NATO-nun dezinformasiya və təbliğata qarşı demokratik dayanıqlığının gücləndirilməsi", "Mülki hazırlıq vasitəsilə üzv olan dövlətlərdə cəmiyyətlərin dayanıqlığının genişləndirilməsi", "Silahlanma üzərində beynəlxalq nəzarət: qarşıda duran çağırışlar", "NATO-nun Asiya tərəfdaşları ilə elm və texnologiya sahəsində əməkdaşlığın dərinləşməsi" və digər mövzularda məruzələr dinləniləcək.

Tədbir iştirakçıları NATO-nun 2030-cu ilə qədər gündəliyi və strateji planları, müdafiə xərcləri və innovasiyalar, NATO-nun Əfqanıstandakı ötən dövrdəki fəaliyyəti, Orta Şərq və Şimali Afrika regionlarında cərəyan edən hadisələr, iqlim dəyişikliyi ilə əlaqədar məsələlər ətrafında fikir mübadiləsi aparacaqlar.

Deputatımız müzakirəyə çıxarılan məsələlərə münasibət bildirəcək, Azərbaycan tərəfinin mövqeyini səsləndirəcək.

## Ocaq Necat Bakını tərk edib - Səfirlikdən açıqlama

***İranın Azərbaycandakı səfirliyi ölkənin Ali dini lideri Xameneinin Azərbaycandakı nümayəndəsi Ocaq Necatın Bakıdakı ofisinin bağlanmasına münasibət bildirib.***

"Unikal" xəbər verir ki, xəbər verir ki, səfirlikdən BBC News Azərbaycancaya bildirilib ki, Xameneinin Azərbaycandakı nümayəndəsi Ocaq Necat bir aydır ki, Tehrandadır.

Səfirlikdən eyni zamanda qeyd olunub ki, sözügedən məscid və ofisin bir-birindən ayrı giriş-çıxışı var.

Qeyd edək ki, Daxili İşlər Nazirliyinin oktyabrın 5-də yaydığı məlumata görə, günorta saatlarında polis əməkdaşları və digər mütəxəssislərin iştirakı ilə ofisin yerləşdiyi Hüseyniyyə məscidinə baxış keçirilib və ibadət yerinin fəaliyyəti dayandırılıb. Buna səbəb isə təhlillər nəticəsində şəhərin bir neçə yerində, həmçinin Hüseyniyyə məscidində son günlər COVID-19 virusuna yoluxanların sayının artmasıdır.

## Azərbaycan Pakistana başsağlığı verdi

***Azərbaycan Xarici İşlər Nazirliyi Pakistana başsağlığı verib.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan XİN-in rəsmi tviter hesabında qeyd olunub.

"Pakistanın Bəlucistan əyalətində baş verən zəlzələ xəbəri bizi çox kədərləndirdi. Zəlzələ qurbanlarının ailələrinə başsağlığı verir, yaralıların hamısına tezliklə şəfa diləyirik. Zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün qardaşlarımızın yanındayıq", - deyə açıqlamada bildirilib.

Qeyd edək ki, Pakistanda baş vermiş 5,7 bal gücündə zəlzələ nəticəsində 20 nəfər həlak olub, 300-dən çox şəxs xəsarət alıb.



## Emin Əmrullayevdən yeni təyinat

***Təhsildə Keyfiyyət Təminatı Agentliyində yeni təyinat olub. "Unikal" xəbər verir ki, təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinə yeni üzv təyin olunub. Həmin əmrə əsasən Murad Əhmədov Agentliyin İdarə Heyətinin üzvü təyin edilib.***

Qeyd edək ki, Murad Əhmədov 1999-2001-ci illərdə Xəzər universitetində təhsil alıb. 2001 - 2002-ci illərdə "Amrahbank" ASC-də, 2002 - 2005-cü illərdə Mərkəzi Bankda, 2005 - 2006-ci illərdə "KPMG Azerbaijan Limited", 2006-2012-ci illərdə "Ernst & Young"-da auditor, 2012-2015-ci illərdə "Pasha Holding"də, 2018-2020-ci illərdə "LU-MUN Holding"də, 2020-2021-ci illərdə "Azerbaijan Poultry Company" MMC-də müxtəlif rəhbər vəzifələrdə çalışıb. Hal-hazırda isə "Azmade Group" MMC-də İdarə Heyətinin üzvü vəzifəsində çalışır.

Xatırladaq ki, Agentliyin Nizamnaməsinə əsasən, Agentlik öz fəaliyyətində və idarəetmə prosesində mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. TKTA-nın işinin təşkili, funksional idarəçiliyin həyata keçirilməsi, Agentliyin səmərəli idarə olunması, şəffaf və çevik təşkilati strukturun qurulması,İdarə Heyətinin üzvləri arasında işəgötürənlərin bir nəfər ictimai əsaslarla fəaliyyət göstərəcək nümayəndəsinin olmasının və İdarə Heyəti səlahiyyətlərinin effektiv və funksional həyata keçirilməsinin təmin edilməsi olduqca vacib hesab olunur.

Murad Əhmədovun təyinatı ilə Agentliyin İdarə Heyəti üzvlərinin sayı tam şəkildə formalaşdırılıb. M.Əhmədovun yeni təyinatı TKTA-nın inkişaf istiqamətlərinin, strateji məqsəd və planlarının tənzimlənməsində mühüm töhfələr verəcəkdir.

Qeyd olunan məlumat Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) tərəfindən təqsdiqlənib.

# Bütün yollar Hacıbala Abutalıbova aparır...

### Sabiq merlə bağlı ilginc ittihamların ardı-arası kəsilmir

***Uzun illər Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) aparat rəhbəri olmuş Rasim Quliyev Bakının Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi-141 ünvanında yerli əhəmiyyətli tarixi-memarlıq abidəsi sayılan yaşayış binasının sökülməsi və yerində hündürmərtəbəli binanın inşası üçün "FF-2011" şirkətinə sərəncam verməkdə ittiham olunur. Lakin bu tikinti şirkətinin rəhbəri Tamilla İbrahimova oktyabrın 4-də Bakı Ağır Cinayətlər Məhkəməsində dindirilərkən bildirib ki, Rasim Quliyevi tanımayıb, ilk dəfə məhkəmədə görür! Bəli, bəli, ilk dəfə, özü də məhkəmədə!***



Şirkət sahibi həmçinin əlavə edib ki,dəfələrlə Bakı şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbovla görüşdüyünü deyib. Əlavə edib ki, Dilarə Əliyeva-141 və 145 ünvanlarında binaların sökülüb, yerində yeni binanın inşası üçün proses 2012-ci ildən başlayıb. 2013-cü ildə Hacıbala Abutalıbov tikintiyə razılıq verib və bu barədə sərəncam imzalayıb.

Lakin 2014-cü ildə Hacıbala Abutalıbov öz sərəncamını ləğv edib, şirkət rəhbərinə də məlumat verilib ki, icra başçısı sözügedən ərazidə söküntü-tikinti aparmağı qadağan edib. Şirkətin rəhbəri həmçinin qeyd edib ki, Dilarə Əliyeva-141-145 ünvanlarında indiyədək tikinti apara bilməsə də, 17 milyon pul xərcləyib. O, əlavə edib ki, tikinti işlərinin alınmayacağını həyat yoldaşına 2021-ci ilin fevralında deyiblər.

Rasim Quliyevin məhz onun şirkəti ilə bağlı məsələdə ittiham olunduğunu eşidəndən sonra T.İbrahimova Hacıbala Abutalıbovun da yanına gedib. Əvvəl bir neçə dəfə Nazirlər Kabinetində Abutalıbov onu qəbul etməyib. Nəhayət, günlərin birində baş nazirin müavininin qəbuluna düşə bilib: "Soruşdum ki, Rasim Quliyev kimdir, mənim sənədimə qol çəkdiyinə görə tutulub? Deyirlər ki, işim ona görə alınmayıb. Hacıbala Abutalıbov dedi ki, ola bilməz. Götürüb, Ramiz Mehdiyevə, Kəmaləddin Heydərova, Əbülfəs Qarayevə, Ədliyyə Nazirliyinə zəng elədi. Ramiz müəllimə dedi ki, Arxitektura Komitəsi Rasim Quliyevin imzasını tanımadıqlarını deyir. Cavabında Ramiz Mehdiyev dedi ki, ola bilməz, biz onun sənədlərini qəbul edirik. Az sonra Zakir Qaralov məktub göndərdi ki, bina qanunsuz tikilir. Biz də işi saxladıqg"

Onu da deyək ki, bu məsələ ilə bağlı məhkəmə araşdırmaları davam edir.

İndi isə gələk əsas məsələyə - Rasim Quliyevin qanunsuz əməlləri öz yerində; lakin onun məhkəməsində sabiq mer barədə elə ilk günlərdən bəri ilginc şahid ifadələri səslənir. "FF-2011" adlı şirkət rəhbərinin söylədikləri isə bu mənada kulminasiya nöqtəsi sayıla bilər. Belə aydın olur (daha doğrusu, təsdiqlənir) ki, vaxtilə BŞİH-də baş verən və bu gün məhkəmə predmetinə çevrilən bir çox qeyri-qanuni işlərdə həlledici söz sahibi Hacıbala Abutalıbov olub. Odur ki, onun da qol qoyulmuş qanunsuzluqlarla bağlı, ən azından, dindirilməsi vacibdir.

Düzdür, cəmiyyətdə belə gözləntilər var idi ki, meriyada ortaya çıxarılan korrupsiya və rüşvət hallarına görə sabiq başçının özü də həbs təhlükəsi ilə qarşı-qarşıya qalacaq. Hacıbala müəllim isə bu gözləntilərə "Mənim həbs olunmağımı istəyənlər ürəyi bəd olan insanlardır" deyə reaksiya vermişdi. Əlbəttə, normal prizmadan yanaşsaq, kiminsə nəinki həbsini istəmək, hətta ayağına daş dəyməsini arzulamaq belə insani baxımdan doğru deyil. Ancaq bu da bir faktdır ki, BŞİH-in sabiq aparat rəhbərinin məhkəməsindəki şahid ifadələri, o cümlədən də, Rasim Quliyevin öz çıxışları yol verilən qanunsuzluqlarda Abutalıbovun birbaşa məsuliyyətini çılpaqlığı ilə ortaya qoyur. Bir sözlə, bütün yollar Romaya, pardon, keçmiş merin özünə gedib çıxır.

Belədə Abutalıbovun ünvanına səsləndirilən birbaşa və dolayı ittihamlar barədə heç olmasa ifadə verməsi gərəkdirmi? Bu təkcə hüquqi məsuliyyət baxımından önəmli deyil. Elə ictimai məsuliyyət baxımından da vacibdir. Qoy Hacıbala müəllim danışsın və mer olduğu zamanda BŞİH-i çulğalamış korrupsiya, rüşvət oyunlarından xəbərsizliyini ortaya qoysun, buna cəmiyyəti inandırsın.

Əks halda hüquqi məsuliyyətin kimin üzərində qalmasından asılı olmayaraq Abutalıbovun adı gələndə, indiyə qədər olduğu kimi bundan sonra da cəmiyyət onun ünvanına saysız-hesabsız (və cavabsız!) ittihamlardan başqa heç nəyi xatırlamayacaq...

***Hüseyn İsgəndərov***

## Ünvanlı sosial yardımın məbləği artıb

***2021-ci ilin sentyabr ayında orta hesabla 1 ailəyə ödənilən ünvanlı dövlət sosial yardımının (ÜDSY) məbləği artıb.***

Bu barədə Unikal.org-a Dövlət Sosial Müdafiə Fondundan bildirilib. Rəsmi məlumata görə, ÜDYS 234,6 manatdan 266,6 manata çatıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,6% artım deməkdir.

Qeyd edək ki, ünvanlı dövlət sosial yardımının təyinində ehtiyac meyarı əsas götürülür. Hər bir ailə üzvü üçün ehtiyacı meyarı 170 manatdır. Əgər ailədə 8 yaşından kiçik uşaq varsa, məşğulluq tələbi ana üçün tətbiq olunmur. Belə olduğu halda ata minimum əməkhaqqı, yəni 250 manat alırsa, o zaman ailənin ümumi ehtiyac meyarından bu məbləğ çıxılır və yerdə qalan məbləğ ünvanlı dövlət sosial yardımı şəklində verilir.

# Xarici işlər nazirlərinin yeni görüşü - XİN-dən AÇIQLAMA

***"Bildiyiniz kimi, Azərbaycan tərəfi hər zaman dialoqa açıq olub və ölkəmiz hər hansı fikir ayrılıqlarının danışıqlar yolu ilə həllinə üstünlük verir. Münaqişə sonrası mərhələdə Ermənistan tərəfi ilə danışıqlara hazır olduğumuzu dəfələrlə bəyan etmişik".***



"Unikal"ın məlumatına görə, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşü nəzərdə tutulub-tutulmaması ilə bağlı suallara cavabında deyib: "Biz post münaqişə dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması istiqamətində məsələlərin müzakirəsini faydalı hesab edirik. Bir müddət öncə Nyu Yorkda iki dövlətin xarici işlər nazirlərinin görüşü baş tutub. Gələcəkdə də belə bir görüşün keçirilməsini istisna ermirik.

Azərbaycan tərəfindən dəfələrlə qeyd edildiyi kimi, hazırkı mərhələdə 3 dövlətin liderləri tərəfindən imzalanmış birgə bəyanatların icrasına ciddi diqqət yetirilməlidir. Bəllidir ki, bu xüsusda bir sıra açıq məsələlər var. Hesab edirik ki, kommunikasiyaların açılışı, sərhədlərin delimitasiyası üzrə danışıqların başlaması, bölgədə dayanıqlı sülhün qurulması istiqamətində konstruktiv irəliləməyimiz üçün sağlam zəmin yarada bilər", - L,Abdullayeva bildirib.

# Azərbaycanda yeni agentlik yaradılır - FƏRMAN

***Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin yaradılması haqqında fərman imzalayıb.***

Unikal.org-un xəbərinə görə, ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarın qısamüddətli mənfi təsirlərə davamlığının artırılması məqsədilə Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyinin əsasında "Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi" publik hüquqi şəxs yaradılıb.



Agentlik Dövlət Taxıl Fondu Agentliyin sərəncamına verilib.

3. Müəyyən edilsin ki:

3.1. Agentlik dövlət və səfərbərlik ehtiyatlarının yaradılması sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində iştirak edən, bu sahədə tənzimləməni və nəzarəti həyata keçirən, habelə ölkənin strateji əhəmiyyətli mallarla təchizatının dayanıqlığını təmin etmək və daxili bazarda həmin mallar üzrə qısamüddətli kəskin qiymət dəyişmələrinin qarşısını almaq istiqamətində tədbirlər görən publik hüquqi şəxsdir;

3.2. Agentliyin fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir;

3.3. Agentliyin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr və onun 2 (iki) müavinindən ibarət İdarə Heyəti yaradılır;

3.4. Agentliyin İdarə Heyətinin sədrini və onun müavinlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

4. Agentlikdə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Agentliyin strukturunun təsdiq edilməsi;

4.1.3. Agentliyin idarəetmə orqanının yaradılması, onun rəhbərinin və üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.1.4. Agentliyin yenidən təşkili və ləğvi;

4.1.5. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. illik maliyyə hesabatlarının təsdiq edilməsi;

4.2.2. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

4.2.3. xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

4.3. Agentliyə:

4.3.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla əməyin ödənişi fondunun, işçilərin say həddinin və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiqi;

4.3.2. inkişaf istiqamətlərinin müəyyən edilməsi.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Agentliyin nizamnaməsinin və strukturunun layihəsini, o cümlədən nizamnamə fondunun miqdarı barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Agentliyin yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının normativ hüquqi aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.3. Agentliyin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.4. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyinin balansında olan dövlət əmlakının, habelə Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyətinin balansında olan və Agentliyin fəaliyyəti üçün zəruri olan dövlət əmlakının Agentliyin balansına verilməsini təmin etsin;

5.5. dövlət qeydiyyatına alındığı gündən Agentliyin maddi-texniki təminatı məsələlərinin həlli üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Material Ehtiyatları Agentliyi öz fəaliyyətini davam etdirsin.

7. Dövlət Kontrakt Korporasiyası "Azərkontrakt" Açıq Səhmdar Cəmiyyəti bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

# "Bu həkimlərimizi kağız üzərinə yazılmış reseptlərdən qurtaracaq" - TƏBİB-in sədri

***"Qeydiyyatdan keçməyən dərmanlarla bağlı səhiyyə nazirinin əvəzi Teymur Musayevlə müzakirələr çox sıx şəkildə davam edir. Teymur müəllim də bu məsələ ilə bağlı çox ciddi addımlar atacağını bildirib".***

Unikal.org-un məlumatına görə, bunu "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" Publik Hüquqi Şəxsin (TƏBİB) İdarə Heyətinin sədri vəzifələrini icra edən Vüqar Qurbanov Milli Məclisin Səhiyyə komitəsində keçirilən "Koronavirus infeksiyası (COVİD-19) ilə bağlı ölkədəki mövcud vəziyyət, vaksinasiya və görülən digər tədbirlər barədə" dinləmədə deyib.

V.Qurbanov qiymət siyasətinə görə bir çox dərman şirkətinin nümayəndəliyinin ölkəni tərk etdiyini bildirib: "Bununla bağlı ciddi addımlar atılacaq".

O, antibiotiklərin apteklərdə satılması ilə bağlı məsələyə də münasibət bildirib: "Bununla bağlı həm İcbari Tibbi üzrə Dövlət Sığorta Agentliyi, həm də Səhiyyə Nazirliyi ilə görüşmələrimiz gedir. Bütün dünyada antibiotiklərin reseptsiz satışına icazə verilməməsi qəbul olunub. Respublikamızda da bu işə nəzarət artıq ciddi tədbirlərlə həyata keçiriləcək. Vacib olan məqam odur ki, artıq xəstəxanalarımızda elektron resept sisteminə keçiriləcək. Bu da həkimlərimizi kağız üzərinə yazılmış reseptlərdən qurtaracaq. Apteklər yazılmış elektron resept üzərindən vətəndaşlara dərmanları təqdim edəcək. Bu da antibiotiklərin və digər reseptsiz satışa icazəsi olmayan dərmanların satışının qarşısını almağa gətirib çıxaracaq. Bu, qısamüddətli proses deyil. Səhiyyə Nazirliyi ilə bu istiqamətdə işlərimiz davam edir".

# Bu klinikalar icbari tibbi sığorta ilə bağlı xidmət göstərir - SİYAHI

***Xidmətlər Zərfinə daxil olan, dövlət tibb müəssisələrində göstərilməsi mümkün olmayan tibbi xidmətlərin göstərilməsi üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müqavilə bağladığı tibb müəssisələrinin siyahısı genişlənib.***

"Unikal" müqaviləli tibb müəssisələrinin siyahısını təqdim edir:

1. Bakı Sağlamlıq Mərkəzi Publik hüquqi şəxs
2. Mərkəzi Klinik Xəstəxana
3. Caspian International Hospital
4. Respublika Diaqnostika Mərkəzi
5. Gəncə Müalicə-Diaqnostika Mərkəzi
6. Gəncə Beynəlxalq Xəstəxanası
7. Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikası
8. Mərkəzi Neftçilər Xəstəxanası
9. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsi
10. EGE Hospital
11. Sumqayıt Hospital
12. Avrasiya Hospital
13. Xüsusi Müalicə Sağlamlıq Kompleksi
14. Leyla Medical Center
15. Badam Medical Center
16. Lor Hospital
17. Məlhəm Beynəlxalq Hospital
18. "OKİ" Özəl Tibbi Müalicəxanası
19. "Azəri Med" Qapalı Səhmdar Cəmiyyəti (Zəfəran hospital)

# Azərbaycanda siqaret BAHALAŞACAQ? - AÇIQLAMA

***Xəbər verdiyimiz kimi, Rusiyada siqaretin qiyməti bahalaşıb. Belə ki, 135 rubl dəyərində olan siqaretlərin qiyməti 140-145 rubl arası olub. Həmçinin, qardaş ölkə Türkiyədə də siqarətin qiymətində artım müşahidə edilib. "Philip Morris SA" qrupuna aid siqaretlər ortalama 6,25 faizlə 1 TL artıb.***

Bəs görəsən, qonşu ölkələrdə olan bu qiymət artımı ölkəmizə necə təsir edəcək?

Məsələ ilə bağlı Unikal.org-a açıqlamasında iqtisadçı ekspert Rəşad Həsənov bildirib ki, Azərbaycan geniş həcmli olmasa da, Türkiyə və Rusiyadan siqaret məhsullarını idxal edir: "Təbii ki, qiymət artımı idxal olunan həmin məhsulların qiymətində öz əksini tapa bilər. Lakin il ərzində ölkəmizdə artıq iki dəfə tütün məhsullarının qiymətində artım baş verib. İndiki şərtlər daxilində qiymətlərin bahalaşması alıcılıq gücünü zəiflədəcək faktorlardan biri ola bilər. Nəticədə, daha keyfiyyətsiz və aşağı qiymətli məhsullara doğru tələbin sürüşməsinə və qaçaqmalçılıq yolu ilə məhsulların ölkəyə gətirilməsi cəhdlərinin artmasına gətirib çıxara bilər".

İqtisadçının sözlərinə görə, bu gün ölkədə istehlak olunan tütün məhsullarının 85 faizindən artıq hissəsi yerli istehsal hesabına formalaşır: "Bu, idxal olunan məhsulların qiymətinin artırılmasında manea hesab oluna bilər. Çünki idxalçılar məhsullarına tələbin aşağı düşməsindən çəkinərək, öz mənfəət normalarından qismən imtina etməklə qısa müddətli dövrdə qiymətin bahalaşmasının qarşısını ala bilər. Lakin orta və uzun müddətli dövrdə bu istiqamətdə yaranmış təzyiqlər qiymət artımına gətirib çıxaracaqdır".

***Könül Oruc***



# Yeni nazirdən anons: İslahatlara ehtiyac var

***"Ölkəmizin gəncləri və idmançıları, Bir ay əvvəl gənclər və idman naziri təyin olundum. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin mənə göstərdiyi yüksək etimaddır. Təyinatım zamanı Prezidentin verdiyi tapşırıq və tövsiyyələrin həyata keçirilməsi üzərimizə böyük məsuliyyət qoyur".***

"Unaikal" Gənclər və İdman Nazirliyinin rəsmi saytına istinadən xəbər verir ki, bu fikirləri nazir Fərid Qayıbov təyinatının bir ayı ilə bağlı danışarkən deyib.

O, təyinatın hər iki sahədə yeni mərhələnin başlanğıcına təsadüf etdiyini bildirib: "İdmanda demək olar ki, həmişə Olimpiya Oyunlarının nəticələri yeni mərhələnin başlanmasını əlaqələndirir. Bu qlobal yarışlar obyektiv olaraq təkcə yüksək nəticəli idman növlərində deyil, həm də kütləvi idmanda mövcud olan qüsur, səhv və çatışmazlıqları üzə çıxarır. Təbii ki, olimpiada güclü tərəflərimizi də göstərir. İdman bu gün böyük bir sənaye və təhsil, strategiya və kadr, təşkilatı-hüquqi və maliyyə-təsərrüfat məsələləridir. Yalnız düzgün qurulmuş əlaqələr davamlı müvəffəqiyyətlə nəticələnə bilər".

Qayıbovun fikrincə, gənclər siyasətinin yeni mərhələsi qloballaşma və Qarabağın təxminən 30 illik işğaldan azad olunması ilə müəyyən edilir: "Bölgədə baş vermiş geosiyasi dəyişikliklər bu andan etibarən və tarix boyunca gənclərin tərbiyəsi, mənəviyatı, uğuru, mübarizliyi, milli qüruru və vətənpərvərliyi üçün əsas olacaq. Yeni mərhələ yalnız prioritetlər deyil, həm də iş prosesinin özünün yenidən qurulması ilə bağlıdır. Gənclərin və idmançıların maraqları naminə çalışmaq - insan kapitalını artıran sistemli iş qurmaq deməkdir. Hər bir sahədə olduğu kimi, gənclər və idman siyasətlərində də islahatlara ehtiyac duyulur. Vəziyyəti səciyyələndirən göstəricilərin sistemli şəkildə toplanmasına, ekspert və müqayisəli təhlillərə diqqət göstəriləcək. İndi çoxlu sayda görüşlər keçiririk ki, onlar təkcə mütərəqqi deyil, həm də obyektiv qərarlar qəbul etməyə kömək edəcək".

Nazir ay ərzində bir sıra idman federasiyalarında qonaq olduğunu xatırladıb: "Ən kütləvi gənclər ictimai təşkilatlarının rəhbərləri, mətbuat nümayəndələri ilə görüşdük. Xaricə iş səfərlərim zamanı ölkənin bir qrup gənc sahibkarları ilə tanış oldum. Türk Şurası çərçivəsində "Çoxtərəfli Gənclər Mübadiləsi Proqramı" adlı yeni təşəbbüsə başladıq. İstanbulda keçirilmiş "Texnofest-2021"də iştirak gənclərimizin innovativ elmi və texniki yaradıcılığını dəstəkləyəmək üçün əhəmiyyətli idi. Görüşlərimiz həm vəziyyəti öyrənmək, həm də kadr potensialını və ehtiyatları qiymətləndirmək məqsədi daşıyır. Artıq söyləmişəm və təkrar etmək istəyirəm ki, qərarlar yeniliklər və təcrübə balansını saxlamaqla birlikdə veriləcək".

Qayıbov bundan əlavə, Avropa Gimnastikasının prezidenti kimi vəzifələrimi yerinə yetirməyə davam etdiyini vurğulayıb. Onun fikrincə, hər iki vəzifə görüləcək işlər haqqında anlayışını artırır, alətlərlə zənginləşdirir və səmərəliliyi yüksəldir: "Əminəm ki, rasional yanaşma səmərəli idarəetmə və davamlı nəticələr üçün yaxşı zəmin olacaq".

Nazir bildirib ki, siyasi, sosial-iqtisadi sahədə son zamanlar əldə edilən nailiyyətlər fonunda gənclərin şüurunda əhəmiyyətli dəyişikliklər baş verir: "Kütləvi bədən tərbiyəsi və idmanda da müasir yanaşma tətbiq edilməlidir. Çətinlikləri bilir, problemləri, səbəblərini, əlaqələrini və təsirlərini təyin edirik. Veriləcək qərarlar və əməli hərəkətlər məntiqli, sağlam, başa düşülən, dəstəklənən və məsuliyyətli olacaq".

# Bəzi məmurların "saxta şirkət oyunu"...

## Bu kirli işin içində hər cür qanunsuz əməl var - qeyri-şəffaflıq, çirkli pulların yuyulması, vergidən yayınma, hətta dələduzluq!

***Hələ bir neçə il əvvəl kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı məlumatlarının təhlili göstərir ki, ölkədə qeydiyyatdan keçən yeni şirkətlərin mühüm hissəsi bir qrup şəxs tərəfindən təsis olunur. Bu "saxta şirkət oyunu" isə zaman keçdikcə öz ağır fəsadlarını göstərməyə başlayır.***

Əslində bir nəfər tərəfindən bəzən sayı onlarla ölçülən şirkətlərin yaradılması elə başdanca şübhələrə, suallara yol açır. Sual ortaya çıxır ki, bir insan bu qədər şirkətləri necə idarə edə bilər? Əksəriyyətinin adları ilk dəfə duyulan şəxslərə bu qədər şirkət adı məgər kolleksiya üçünmü lazımdır? Axı doğru-düzgün fəaliyyət göstərməyən həmin şirkətlərin hesabatını aidiyyatı dövlət qurumlarına təqdim etməyin özü belə az resurs tələb etmir.



Bütün bu şübhə və sualların özü kifayətdir ki, bir nəfər tərəfindən yaradılan çoxsaylı şirkətlərin əslində xoş niyyətlə ortaya çıxmadığına əmin olasan.

Son zamanlar hüquq-mühafizə orqanlarının apardığı müxtəlif istintaq əməliyyatları isə acı mənzərəni daha da konkretləşdirir. Məsələn, elə yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, "Günay Bank" ASC-nin 7 saylı filialının vəzifəli şəxsləri barədə daxil olan məlumat əsasında həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaqı aparılır. Nəticədə müəyyən edilib ki, həmin filialın müdir müavini Rauf Hüseynov 2018-2021-ci illər ərzində yaxın qohum və tanışlarının adına nə az, nə çox, düz 585 şirkət təsis etməklə həmin şirkətlərin müvafiq dövlət orqanlarında qeydiyyata alınmasına nail olub!

Onun işlədiyi müəssisənin yaxınlığında icarəyə ofis götürüb qanunsuz olaraq ayrı-ayrı şəxsləri işə cəlb etməklə müxtəlif fiziki və hüquqi şəxslərə məxsus ümumilikdə 53 milyon 933 min manat məbləğində pul vəsaitini özünün faktiki idarə etdiyi şirkətlərin bank hesablarına köçürərək rəsmi möhür və elektron imzalardan istifadə edib nağdlaşdırmasına və bununla da, qanunsuz olaraq xüsusilə külli miqdar təşkil edən 780 min 691 manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr yaranıb.

Mövzu ilə bağlı müxtəlif vaxtlarda fikirlərini mətbuatla bölüşən iqtisadçıların fikrincə, qısa müddət ərzində bir şəxsin adına xeyli sayda şirkətin qeydiyyatdan keçməsi ilk növbədə onu göstərir ki, ölkədə firmaların, kommersiya qurumlarının fəaliyyəti ilə bağlı ciddi əngəl yoxdur. Amma bu şirkətlərin fəaliyyətinə diqqət yetirəndə aydın olur ki, onların böyük əksəriyyəti dövlət qurumları qarşısında hesabat vermir, bir neçə dəfə istifadə olunduqdan sonra fəaliyyətlərinə xitam verilir. Bu ona xidmət edir ki, ixrac, idxal əməliyyatları zamanı və yaxud digər məqsədlər naminə həmin şirkətlərin möhürlərindən istifadə olunsun. Bir müddət sonra məlum olur ki, həmin şirkətin dövlətə ödəməli olduğu vergi borcları ilə bağlı öhdəliklər icra edilmir.

Ekspertlər düşünür ki, bir nəfərin adına çoxsaylı şirkətlərin yaradılması hallarının artması eyni zamanda ölkədə kölgə iqtisadiyyatının artmasına xidmət edir. Bu şirkətlərin əksəriyyətinin elektron ünvanlarının, poçtlarının olmadığını deyən ekspertlər vurğulayırlar ki, bu həmin şirkətlərin formal olduğunu sübut edir. "Bu şirkətlər rəqabətə davamlı məhsul istehsal etməyə xidmət etmir. Onlar daha çox qaranlıq otaqda fəaliyyət göstərməyə xidmət edir. Bir neçə dəfə istifadə olunduqdan sonra həmin şirkətlər barəsində məlumat əldə etmək olmur. Bu isə çirkli pulların yuyulması üçün offşor zonalarda yaradılan şirkətləri xatırladır. Həmin şirkətlər vergidən yayınmağa, banklardan kredit götürüb, daha sonra şirkətin fəaliyyətinə xitam verməK üçün yaradılır. Bu şirkətlərin önəmli qisminin arxasında iri məmurların, imtiyazlı şəxslərin durması da acı reallıqdır. Əks halda onların bu cür sərbəst "fəaliyyəti", əl-qol açması qətiyyən mümkün ola bilməzdi" deyən iqtisadçıların fikrincə, son vaxtlar aparılan genişmiqyaslı islahatlar çərçivəsində bu zərərli tendensiyaya son qoyulmasına ciddi ehtiyac var.

Çünki "saxta şirkət oyunu" şəffaflıq və hesabatlılığa zərbə vurduğu, "kölgə iqtisadiyyatı"nı ayaqda saxlamağa, korrupsiya əməliyyatlarına "yaşıl işıq" yandırmağa davam etdiyi kimi, eyni zamanda real iqtisadiyyatın böyüməsinin qarşısında da ciddi manеə olaraq qalır...

***Toğrul Əliyev***

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# İctimai şüralar ictima nəzarəti təmin edə bilirmi?

### Əliməmməd Nuriyev: "" İctimai şuralara seçkilərdə tərəfdarların toplanması halları olur"

***Dövlətdən maliyyələşən qurumlarda şəffaflığın təmin olunması üçün ictimai nəzarətin olması vacibdir. İctimai nəzarət ilə bağlı ölkəmizdə son illər əhəmiyyətli dönüş hiss olunur. 2013- cü ildə "İctimai iştirakçılıq haqqında qanun"un qəbulundan sonra tədricən mərkəzi, yerli icra orqanlarında ictimai şuraların yaradılmasına başlanıldı. Son bir ildə isə bu sahədə əhəmiyyətli dönüş yaranıb.***



Demək olar ki, ölkəmizdə üzdə olan əksər dövlət qurumları yanında ictimai şuralar yaradılıb. Bununla belə cəmiyyətdə ictimai şuraların həmin qurumlarda ictimai nəzarəti həyata keçirəcəyinə inam çox aşağıdır. Hətta sosial şəbəkələrdə də tez-tez hansısa qurumda ictimai şuralara seçkilərin keçirilməsi müzakirə mövzusuna çevrilir. Eyni şəxslərin bir neçə qurumda ictimai şurada təmsil olunması, eləcə də ictimai şuralara seçkilərdə saxtakarlığın olması, hər qurumun özünə yaxın şəxsləri ictimai şuralara seçdirməsi ikrah doğurur. Bu sosial platformada da ciddi narazılıq doğurur.

Bəs görəsən ictimai şuraların bugünkü fəaliyyəti qənaətbəxşdirmi? Bu şuralarda təmsil olunan şəxslər ictimai maraqlardan çıxış edərək dövlət qurumları üzərində ictimai nəzarəti təmin edə bilirlərmi?

Konstitutsiya Araşdırmalar Fondunun prezidenti, bir neçə dövlət qurumu yanında ictimai şurada təmsil olunan Əliməmməd Nuriyev deyir ki, son illər ictimai şuraların yaradılması prosesinin özü belə müsbət amildir: " Dövlət qurumları üzərində nəzarət formalarından biri də ictimai şuraların yaradılmasıdır. Qanunla mərkəzi, yerli icra orqanlarının və bələdiyyələrin yanında ictimai şuralar yaradılmalıdır. 2020-ə qədər 11 yerli icra orqanı yanında ictimai şura vardı. 2020-ci ilin sentyabr ayından başlayaraq Milli Fəaliyyət Planında bəndlərdən biri də ictimai şuraların yaradılması posesinin sürətlənməsi ilə bağlı oldu. Korrupsiyaya Qarşı Mübarizə Kommisiyasının iclasında ictimai şuralarla bağlı vəzifələr müəyyən edildikdən sonra Azərbaycan prezidenti də ictimai şuraların zəruriliyini vurğulayıb. Artıq 11 icra hakimiyyəti orqanı yanında şuralar yaradılıb. İlk ictimai şura Ədliyyə Nazirliyi yanında yaradılıb. Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT rəhbərləri ilə görüşündə bu məsələ xüsusi vurğulandı. Bununla sanki ictimai təmsilçiliklə bağlı qanunun tətbiqinə ikinci can verildi. İkinci Vətən müharibəsi dövründə ictimai şuraların yaradılmasında müəyyən fasilə olsa da, müharibədən sonra bu proses sürətlənməyə başladı. Mərkəzi icra orqanları yanında seçkilər keçirildi".

Ə. Nuriyev deyir ki, ictimai şuralara seçkilər ədalətli, demokratik keçirilməlidir. Bununla belə Ə.Nuriyev də təsdiqləyir ki, ictimai şuralara seçkilər zamanı bir sıra hallarda müəyyən qruplar yaranır: " İctimai şuralara seçkilərdə tərəfdarların toplanması halları olur. Amma seçki tərəfdar toplamaqdır. Bu da insanlarda belə təəssürat yaradırdı ki, peşəkar şəxslər ora düşə bilmir. Amma bu belə deyil".

Ə. Nuriyev onu da deyir ki, bu gün ən çox problem yerli icra orqanlarında ictimai şuraların yaradılması və ictimai nəzarətin təmin olunması ilə bağlıdır.

Həmsöhbətimiz deyir ki, ictimai şuraların yaradılması bəzi qurumlarn fəaliyyətində müsbətə doğru dönüş yaradır: "Məsələn, məhkəmə qərarlarının icrası istiqamətində problemlər vardı. Ədliyyə Nazirliyi yanında ictimai şuranın fəaliyyəti ilə bu sahədə xeyli problem aradan qalxdı. Bu gün ictimai şuraların fəaliyyəti həm də resurslarla bağlı olan məsələdir. Qanunla ictimai şuralar qonarar ala, qrant ala, tenderlərdə iştirak edə bilməzlər. Qanunvericilik bir şəxsin bir neçə qurumun yanında ictimai şurada təmsil olunmasını qadağan etmir. Bu gün elə ictimai şəxslər var ki, onlar bir neçə qurumun yanında ictimai şuraya üzvdürlər. Burada mən elə bir qəbahət görmürəm. Qanunvericiliklə də bir şəxs bir neçə qurumun yanında ictimai şurada təmsil oluna bilər".

Ə. Nuriyev deyir ki, bu gün ictimai şuralarla bağlı aradan qaldırılmalı məqamlardan biri də yerli icra orqanlarında aidiyyatı olmayan insanların bu şuralarda təmsilçiliyi ilə bağlıdır. Ona görə də, Ə. Nuriyev yaxın gələcəkdə ictimai şuralarda ixtisas meyarlarının yaradılacağını söyləyir. Onun sözlərinə görə yerli icra orqanlarında tam fərqli indiqatorlar olmalıdır.

Ə. Nuriyev bildirib ki, cəmi indiyədək 17 mərkəzi, 30-a yaxın yerli icra orqanı yanında ictimai şura yaradılıb.

Qeyd edək ki, "İctimai iştirakçılıq haqqında" qanun layihəsinə əsasən, dövlət orqanlarının fəaliyyətinə ictimaiyyətin nəzarətini təmin etmək üçün icra strukturları yanında ictimai şuralar yaradılır. Son illər ölkədə yaradılan İçtimai Şuraların fəaliyyəti diqqət mərkəzindədir. İştimai Şura mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflığı, ictimai nəzarətin həyata keçirlməsi, dövlət siyasətinin formalşdırılması, icrası və qərarların qəbulu zamanı ictimai rəyin nəzərə alınmasını təmin etmək məqsədilə "İctimai iştirakçılıq haqqında" qanuna uyğun olaraq təsis edilən və ictimai əsaslarla fəaliyyət göstərən birlikdir.

İctimai Şura vətəndaşların dövlətin idarə olunmasında iştiraka cəlb edilməsi, Mərkəzi və Yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, bu qurumlarla ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, aşkarlığın, şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması, həyata keçirilməsi, qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının müdafiəsi məqsədilə birgə qarşılıqlı fəaliyyət göstərməlidir. Hər bir qurum əsasən öz fəaliyyət istiqamətlərinə uyğun olaraq müvafiq sahədə ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə İctimai şurada seçkilər keçirə bilər. İctimai şura yaradılandan sonra fəaliyyət dövrü üzrə Tədbirlər Planını hazırlayır və plana uyğun olaraq fəaliyyət göstərir. İctimai iştirakçılara dair nəzərdə tutulan tələblər yerinə yetirilirsə eyni şəxsin bir neçə Şuraya üzv olmağı onun fəaliyyətinə təsir göstərmir. İctimai şuralar seçki vasitəsi ilə formalaşır.

*Gülayə Məcid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## "Son 6 gündə düşən yağıntı aylıq norma qədər olub" - ETSN

***İlin hər bir fəsli hava şəraitinin fərqləndirici xüsusiyyətləri ilə bərabər özünəməxsus gözəllikləri ilə seçilir. Payız fəsli də bu baxımdan istisna deyil. Payızın ortalarında artıq günlərin qısalması və havaların soyuması daha çox hiss edilir.***

Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva Unikal.org-a bildirib ki, bu ilin oktyabr ayı havanın temperaturunun aşağı düşməsi, yağışlı və çiskinli günlərlə başlayıb. Hətta bəzi bölgələrdə son altı gündə ay ərzində düşən miqdarda yağıntı qeydə alınıb, yağıntılar intensiv və güclü olub, dağlıq ərazilərdə qar yağıb.

"Ayın əvvəli son illərdə oktyabr ayında müşahidə edilən hava şəraitindən xeyli fərqləndi. Paytaxt buludlara büründü, tutqun payız abhavası bizi əhatə etdi, hər gün yağış yağdı. Buna səbəb Mərkəzi Rusiyadan gələn soyuq antisiklonun qolu və sıra-sıra ərazimizə daxil olan soyuq atmosfer cəbhələrinin təsiridir".

U.Tağıyevanın sözlərinə görə, düşən yağıntının miqdarı Şəmkirdə aylıq normanın 94, Ağstafada 103, Oğuzda 93, Balakəndə 98, Zaqatalada 111, Lənkəran-Astara zonasında 23-41 faizini (63-103 mm) təşkil edib.

"Bu ay, eyni zamanda, sel hadisələri qeydə alınıb. Yağan leysan yağışlar nəticəsində Əsrikçay-Əsrikcırdaxan (Tovuz), Girdimançay-Qaranohur (İsmayıllı), Talaçaydan (Zaqatala) sel keçib. Qar örtüyünün hündürlüyü Şahdağda 4, Qrız, Xınalıqda 3, Ləzədə 2 sm təşkil edib. Havanın orta sutkalıq temperaturu 16.9, 2020-ci ilin müvafiq dövründə isə 20.2 dərəcə isti olub ki, bu da ötən illə müqayisədə 3.3 dərəcə aşağıdır".

*Seymur Əli*

## Türkiyə ABŞ-dan yeni F-16-lar alır

***Türkiyə ABŞ-dan 40 ədəd F-16 Block70 qırıcısı almaq niyyətindədir.***



Unikal.org xarici KİV-ə istinadən xəbər verir ki, Ankara həmçinin Vaşinqtondan 80 köhnə F-16-nı modernləşdirmək üçün kömək istəyib.

Bildirilib ki, Türkiyə Milli Müdafiə Nazirliyi artıq lazımi məktubu ABŞ-a göndərib.




## Qazaxıstanda vitse-prezident təyin olunan azərbaycanlı

***Ötən gün Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti təyin olunan tanınmış azərbaycanlı jurnaist Füzuli Məcidli bu etimada görə, rəhbərliyə təşəkkürünü bildirib.***

O deyib: "Beynəlxalq Türk Akademiyasının yaradılması haqqında müqaviləyə əsasən, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təhsil və elm nazirliklərinin təmsil olunduğu BTA Elmi Şurasının yekdil qərarı ilə bundan sonra təşkilatın vitse-prezidenti olaraq fəaliyyətimi davam etdirəcəyəm. Bu yüksək etimada layiq görən Azərbaycan dövlətinə, ölkəmizin və təşkilata üzv olan digər ölkələrimizin müvafiq qurumlarına, BTA prezidentinə, dəstək və qayğısını əsirgəməyən insanlara, dostlara dərin minnətdarlığımı bildirirəm".

O, 2016-cı ildən çalışdığı bu təşkilatda bundan sonra daha da faydalı olmağa, Türk dövlətlərinin yaxınlaşması, inteqrasiyası və birliyi naminə əlimdən gələni əsirgəməməyə, göstərilən etimadı doğrultmağa çalışacağını bildirib.

Qeyd edək ki, Beynəlxalq Türk Akademiyası Qazaxıstanda fəaliəyət göstərir. Füzuli Məcidli isə 2016-cı ildən bu qurumda müşavir vəzifəsində çalışırdı.

## Vaqif Mustafayev HARALARDADIR?

***Modern.az saytı bundan sonra "...haralardadır?" adlı yeni rubrikasında geniş ictimaiyyətə tanış olan ictimai, siyasi, mədəniyyət, incəsənət, idman, ədəbiyyat xadimlərinin hazırda harada olduğunu xəbər verəcək.***

Bu ilin fevralında "Space" telekanalının rəhbəri vəzifəsindən istefa verən kinorejissor Vaqif Mustafayev indi haralardadır?

Məlum olub ki, Vaqif Mustafayev "Space" TV-nin rəhbərliyindən ayrılandan sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kino-televiziya sənətləri kafedrasının professoru vəzifəsində çalışır.

Rejissor bu yaxınlarda "Fəryad-2? tammetrajlı bədii filminin çəkilişlərini də yekunlaşdırıb.

Rejissor, ssenarist Vaqif Behbud oğlu Mustafayev 1953-cü ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu, daha sonra Moskvada Ali Rejissorluq və Ssenaristlik kursunun rejissor bölməsini bitirib.

"Yaramaz", "Hər şey yaxşılığa doğru", "Yoxlama", "Fransız" kimi məşhur filmlərə rejissorluq edib.

Filmləri bir sıra beynəlxalq festivalda mükafatlar alıb. V.Mustafayev Dövlət Mükafatı laureatı, Xalq artistidir.

1 avqust 2018-ci ildə Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə, "Şərəf" ordeni ilə təltif olunub.

2006 - 2021-ci illərdə "Space" televiziya kanalının rəhbəri vəzifəsində çalışıb.

# Vətən Müharibəsinin 10-cu günü: Düşmənin beli bükülür

***Müharibənin ilk günündən erməni hərbi hissələrinin qəhrəmanlıqla vuruşması, Azərbaycanın xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etməsi barədə Ermənistan hakimiyyətinin verdiyi bəyanatlara rəğmən, münaqişə bölgəsində yaşanan reallıqlar get-gedə ermənilər üçün daha çox dəhşət filmlərini xatırlatmağa başlayırdı.***

Oktyabrın 6-sı sübh saatlarında Azərbaycan Müdafiə nazirliyinin mətbuat xidməti bütün cəbhə boyu, o cümlədən də Cəbrayıl-Füzuli istiqamətində əməliyyat və hərbi üstünlüyün ordumuzun tərəfində olduğunu açıqlayıb.

Aparılan hərbi əməliyyatlar nəticəsində düşmənin Ballıca məntəqəsində yerləşən mərkəzi silah-sursat anbarı məhv edildi, 2 ədəd BM-21 "Qrad"ı sıradan çıxarıldı. Bundan əlavə, 42-ci artilleriya alayının atəş mövqeyində yerləşdirilmiş D-20 artilleriya qurğuları və onların heyətləri darmadağın olundu.



İnsan itkilərinin minimuma endirilməsi sahəsində xüsusi rol oynayan ANAMA-nın mütəxəssisləri münaqişə zonasında və düşmən artilleriyasının hücumlarına məruz qalmış rayon və şəhərlərdə 15 ədəd partlamamış hərbi sursat aşkarlayaraq zərərsizləşdirdi.

Müstəqilliyini bərpa etdiyi andan və Vətən müharibəsinin ilk dəqiqəsindən daim Azərbaycanın yanında olan, onun haqq işini dəstəkləyən Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan həmin gün NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdə BMT TŞ və ATƏT-in qətnamələrinin Ermənistanı təcili olaraq işğal etdiyi Azərbaycan ərazilərindən çıxmağa çağırdığını xatırladıb. Bununla da rəsmi Ankara hazırda Azərbaycanın öz gücü ilə həmin qətnamələri icra etdiyini vurğulayıb.

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə əlaqələr idarəsinin rəhbəri Fahrettin Altun isə rəsmi "Twitter" səhifəsində Türkiyənin ədalətli savaşda hər zaman qardaş Azərbaycanın yanında olduğunu, beynəlxalq birliyin artıq qeyri-qanuni işğal qarşısında susa bilməyəcəyini yazıb.

Maraqlıdır ki, qəbul etdiyi məlum qətnamələrin yerinə yetirilməsinə indiyədək etinasız yanaşan BMT-nin Baş katibi Antoni Qutteres yaşayış məntəqələrinin atəşə tutulması, hərbi əməliyyatların yayılması barədə xəbərlərdən ciddi narahatlığını bildirərək, regional və beynəlxalq qüvvələri münaqişə zonasında atəşin təcili dayandırılmasına nail olmaq üçün kömək etməyə çağırıb.

Bu bəyanat müasir beynəlxalq münasibətlər sistemində absurd bir vəziyyətin yarandığını sübuta yetirmirmi? BMT məhz onun üçün təsis edilib ki, belə münaqişələrin həllində öz sərt mövqeyini sərgiləsin və onların həllində əsas moderator rolunu oynasın. Amma indi onun özü açıq-aşkar şəkildə bu qurumu oyuncağa çevirmiş güc mərkəzlərinə az qala yalvarır. "Hamı dəli olanda mollanın yanına qaçır, bəs molla dəli olanda kimin yanına qaçsın?" müdrik kəlamını xatırlatmırmı bu reallıq?

Hərbi əməliyyatların başladığı ilk gündən informasiya müharibəsində də Ermənistanın və onun havadarlarının mövqelərinə ardıcıl sərrast zərbələr endirən Azərbaycan prezidentinin danılmaz faktlara, tutarlı dəlillərə əsaslanan bəyanatları və müsahibələri dünyanın müxtəlif ölkələrinin KİV-lərində yaımlanırdı.

Vətən müharibəsinin 10-cu günü Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin "Aljazeera", "Əl-Ərəbiyə" televiziya kanallarına müsahibələri, həmçinin dövlətimizin başçısının xalqa müraciəti Misir mass-mediasında geniş şəkildə işıqlandırıldı. Misirin "Almasryalyoum", "Akhbarelyom", "Aldiplomasy", "Alwasela", "Egyptonline" və "Nile1" informasiya portalları AZƏRTAC-a istinadla "Prezident İlham Əliyev: Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik" və "Azərbaycan Prezidenti: Ərazi bütövlüyümüzü bərpa edəcəyik!" sərlövhəli xəbərlər yayıblar. "Asiaelyoum" informasiya agentliyinin baş redaktoru Əbubəkr Əl- Məcd isə "Prezident İlham Əliyev: Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və biz haqq yolundayıq" sərlövhəli məqalə yazıb. Misirin "Rayetmısr" informasiya portalı isə Azərbaycan Prezidentinin müsahibələri və xalqa müraciətindən sitatları yayıb.

Vətən müharibəsi anlayışı məhz bütün xalqın öz rəhbəri, Ali Baş Komandanı ətrafında bir yumruq kimi birləşməsi və onu dəstəkləməsi reallığın özündə ehtiva edir. Prezident İlham Əliyevə 44 gün ərzində ünvanlanan məktubların hamısında iki məqam xüsusi olaraq vurğulanır: "Hər birimiz, bütün xalq Sizinlədir" və "Yaşımızdan və sosial statumuzdan asılı olmayaraq hər birimiz torpaqlarımızın işğaldan azad olunması üçün döyüşə hazırıq". Azərbaycan xalqı bunu əməldə bütün dünyaya sübut etdi. Öz prezidentinin və Ali Baş Komandanının haqq işinə dəstək olmaq üçün yüz minlərlə soydaşımız cəbhəyə yollanmaq barədə çağırış məntəqələrinə müraciət etdi. Halbuki, bu vaxt Ermənistanda 10 minlərlə insan fərarilik edirdi.

Müharibənin 10-cu günü döyüşçülərimiz "Dəhşət" ləqəbli erməni polkovnikleytenantı Artur Qalstyanı məhv edərək onu əsl dəhşətin nə olduğunu anlamağa göndərdilər.

Ermənistan hakimiyyətinin və Dağlıq Qarabağdakı separatçı rejimin liderlərinin lovğalıqlarına və uydurmalarına baxmayaraq, regiondakı hadisələrin mahiyyətinə və hadisələrin gedişini diqqətlə izləyən siyasətçilər erməni silahlı qüvvələrinin Azərbaycanla qarşıdurmada heç bir şansı olmadığını vurğulayırdılar. Onlar məhz bu səbəbdən də Ermənistanın Azərbaycanın yaşayış məntəqələrini və mülki əhalsini atəşə tutduğunu qeyd edirdilər.

"Artıq Ermənistan tərəfi anlayır ki, müharibəni uduzur. Ermənistan dinc əhalini ona görə atəşə tutur ki, Azərbaycanın uğurlu hərbi əməliyyatlar apardığını görür. Azərbaycanın pilotsuz uçuş aparatları çox yüksək səviyyədədir. Ermənistan pilotsuz aparatlardan özünü müdafiə etmək üçün vasitələrə malik deyil. Azərbaycan Silahlı Qüvvələri addım-addım irəliləyir, Azərbaycan ərazilərini azad edir. Cəbrayıl, Füzuli, cənub istiqamətində digər ərazilər. Hesab edirəm ki, Ermənistan tərəfi başa düşür ki, əgər Azərbaycanın əməliyyatları davam etsə, bu, müharibənin sonu olacaq və Azərbaycan qalib gələcək. Buna görə də Ermənistan münaqişənin foksunu dəyişmək istəyir və dinc əhalini atəşə tutmaqla Bakını məcbur edir ki, reaksiya versin", - ABŞ-ın sabiq həmsədri və Azərbaycandakı keçmiş səfiri Metyu Brayza bildirib.

Oktyabrın 6-da Fransanın ermənipərəst rfi.fr saytı "aralarında peşəkar döyüşçülər olan "könüllü" dəstənin artıq bir neçə gündür ki, Xankəndinə gəldiyini yazıb. Livan, Suriya və Latın Amerikasından olan və yaşı 30-u keçmiş "könüllü"lərin döyüşlərə qatılmazdan əvvəl ekspres təlim keçdikləri və saylarının çoxluğu üzündən bir hissəsinin Yerevanda gözləmə mövqeyində olduğu vurğulanır. Onların Ağoğlan (Hadrut) istiqamətində Azərbaycana qarşı döyüşlərə hazırlaşdıqları bildirlir. Ermənistanın iddiasına görə, bunlar muzdlular yox, erməni əsilli könüllülərdir.

Sayt yazıb ki, kimliklərinin gizli saxlanılması şərtilə onlar döyüşlərdən danışmağa razılıq veriblər. Aralarında əlinə heç vaxt silah almayan "könüllülər"in sözlərindən belə məlum olur ki, Azərbaycan tərəfi ilə düşmən olduqlarına görə yox, yalnız sağ qala bilmək üçün döyüşürlər. "Başımızın üstündən dronlar uçur. Onları vurmağa məcburuq, yoxsa onlar bizi vuracaqlar, ölməmək üçün qaçmağa məcburuq, ayaq basdığımız hər yerdə meyitlər var. Müharibənin əsl üzü dəhşətdir", -onlardan biri deyib.

Həmin gün Azərbaycan Ordusunun apardığı sülhəməcburetmə və antiterror əməliyyatları nəticəsində Qarabağda daha iki əcnəbi muzdlu-terrorçunun məhv edilməsi ermənilərin fənd-felinə düşüb bizim ərazilərdə macəra axtaranlara həqiqətən də əsl cəhənnəm dəhşəti ilə üzləşəcəkləri barədə ciddi xəbərdarlıq idi.

Özü də yalnız xəbərdarlıq yox, həm də Azərbaycanın haqq işinin və Müqəddəs Savaşının Qalibiyyətlə bitəcəyinin göstəricisi idi.

***Sahil İsgəndərov***

# Cəbrayılda yaradılacaq sənaye parkının əhəmiyyəti nadir - Ekspert

***Azərbaycan prezidenti İlham Əliyev Cəbrayıla səfəri zamanı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkının əsasını qoydu. Quruculuq işləri davam edən, hələ əhalinin yaşamadığı bölgədə sənaye parkının əhəmiyyəti nədir? Bunu AzVision.az-a izah edən iqtisadiyyat elmləri doktoru, professor Əlibala Məhərrəmzadə bildirib ki, Qarabağda Sənaye Parkının təməlinin qoyulması sözsüz, tarixi hadisədir.***

- Fikir verin ki, indiyə qədər biz əsasən Qarabağda əsasən kənd təsərrüfatının necə inkişaf etdiriləcəyinə dair xəbərlər eşidirdik. Bölgədə yaradılacaq müasir, ağıllı, ekoloji kənd təsərrüfatının verəcəyi məhsulların harada emal olunacağı sualı isə açıq qalırdı. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlinin qoyulması bu suala cavabdır. Bir daha aydın oldu ki, Azərbaycan hökumətinin Qarabağın iqtisadi inkişafına dair bütün təfərrüatları nəzərə alan, detallı, hərtərəfli planı var,- ekspert deyib.

O, xatırladıb ki, Azərbaycanda sənaye parkları və məhəllələrinin yaradılmasına 2013-cü ildən başlanıb. Ölkəmizdə beş sənaye park vardı, cənab Prezidentin Cəbrayıla səfəri zamanı əsasını qoyduğu "Araz Vadisi İqtisadi Zonası" altıncı olacaq. Amma bu park bir sıra cəhətlərinə görə əvvəlkilərdən fərqlənir:

- Kənd təsərrüfatı həssas sahədir. Onun logistikası düzgün qurulmasa, qoyulan investisiyaların özünü doğrultması sual altına düşə bilər. Bizim halda "logistika" anlayışı soyuducu anbarlardan tutmuş, tarlada işləyən traktora texniki xidmətə qədər çox geniş spektrdə səpələnmiş sahələri əhatə edir. Onların hamısı qurulmalı və saat kimi işləməlidir. Əks təqdirdə, açığı, Qarabağda kənd təsərrüfatının inkişafı yönündə atılan addımlar daha çox siyasi xarakterli görünə bilərdi. Fəqət faktiki boş bir ərazidə sıfırdan qurulan kənd təsərrüfatını logistika ilə necə təmin etmək olardı? Sənaye Parkının açılışı ilə hər şey özü yerini aldı. Aydın oldu ki, regionda hər şey nəzərə alınmaqla, kompleks iqtisadiyyat qurulur.

Prezidentin Cəbrayıla səfəri zamanı Sənaye Parkı ilə yanaşı "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlinin qoyulması da, professorun sözlərinə görə, bu baxımdan kifayət qədər maraqlı məsələdir. Əgər biz bölgədə kənd təsərrüfatını inkişaf etdirmək istəyiriksə, orada maşın gücünə ehtiyac var. Bu gücü həm də Rusiyanın, daha dəqiqi, Tatarıstanın "KamAZ" şirkəti təmin edəcəksə, iqtisadiyyatdan əlavə, böyük siyasi mənası da var.

- Əvvəla, bu torpaqlar bir il əvvələ qədər erməni işğalında idi və ermənilər onları qaytarmamaq üçün Rusiyanın himayəsinə ümid edirlər. İndi isə biz həmin torpaqlarda Rusiya biznesinin iştirakına imkan yaratmaqla ermənilərə böyük dərs vermis oluruq. İkincisi, bu işbirliyi bir çox baxımlardan bizə yaxın olan Tatarıstanla əlaqələrimizi daha da sıxlaşdıracaq,- Əlibala Məhərrəmzadə bildirib.

O, xatırladıb ki "KamAZ" 2014-cü ildən Azərbaycanda işləyir və Gəncə Avtomobil Zavodu ilə uğurlu iş təcrübəsi var: "Hazırda orada 8 model "KamAZ" buraxılır və indiyədək 1000-dən çox maşın istehsal olunub. Qarabağ azad ediləndən sonra kənd təsərrüfatımız ekstensiv genişləndiyindən, indi daha çox maşına tələbat var. Servis mərkəzinin məhz Cəbrayılda açılması göstərdi ki, "Kamaz" ilə Gəncə Avtomobil Zavodunin birlikdə istehsal etdikləri maşınların çoxu Qarabağda işləyəcəklər".



Sonda həmsöhbətimiz əlavə edib ki, bütün bunlarla yanaşı, Sənaye Parkı - iqtisadiyyat üçün stimullaşdırıcı effekt deməkdir. Əgər söhbət sıfırdan qurulan iqtisadiyyat gedirsə, onun inkişaf sürəti bir neçə dəfə artacaq. Bu məntiqlə, yaxın gələcəkdə müəyyən iqtisadi potensial toplanandan sonra Qarabağımızda sənaye məhəllələrinin də yaradılacağını gözləyə bilərik.

# DİN-dən xüsusi əməliyyat: Silahlı şəxslər tutuldu




***Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən müxtəlif şəxslərdə qanunsuz olaraq saxlanılan odlu silah-sursatların aşkar edilməsi istiqamətində əməliyyatlar həyata keçirilib.***

Daxili İşlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, Baş İdarəyə əvvəllər dəfələrlə məhkum olunmuş Bərdə rayon sakini Babək İsbəndiyarovun üzərində qanunsuz olaraq odlu silah gəzdirməsi barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbir nəticəsində həmin şəxs Abşeron rayonu Xırdalan şəhərində saxlanılıb. Onun üzərinə baxış zamanı 1 ədəd "Makarov" markalı tapança, həmin silaha məxsus 1 ədəd sandıqça və 3 ədəd patron aşkar olunaraq götürülüb.

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən daha bir tədbir zamanı isə əvvəllər Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə dəfələrlə məhkum olunmuş Məzahir Aslanov isə yaşadığı Şirvan şəhərində saxlanılaraq Baş İdarəyə gətirilib. Onun üzərinə baxış keçirilən zaman 1 ədəd revolver tipli tapança və həmin silaha məxsus 5 ədəd patron aşkar olunaraq götürülüb. Faktlarla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işləri başlanılıb. Babək İsbəndiyarov və Məzahir Aslanov barəsində Nərimanov Rayon Məhkəmənin qərarı ilə həbs qətimkan tədbirləri seçilib, araşdırmalar davam etdirilir.

# Ömrünü Vətənə qurban verən qəhrəman Vüsal

***İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu erməni faşistləri üzərində şanlı qələbə qazanaraq 30 il əsarətdə olan torpaqlarını azad etdi. Tariximizin qəhrəmanlıq salnaməsinə dönən bu zəfərdə Lənkəran elinin mərd övladı Vüsal Tahir oğlu Quliyevin payı da böyükdür. 1985-ci ildə dünyaya göz açan Vüsalın Vətəninə, torpağına olan əvəzsiz sevgisi ana südü ilə birgə hopmuşdu onun qanına. Odur ki, məqamı gələn kimi torpağı qani ilə Vətən edənlərdə oldu. Həm də 35 yaşlı qəhrəmanın şəhadəti bizlərə bir daha Vətəni necə sevməyi, torpağı necə qorumağı öyrətdi.***

Doğma Azərbaycanın müqəddəsliyinə tapınaraq şərəfli həyat yoluna sahib çıxan Vüsal uşaqlıqdan hərb sənətinə maraq göstərir. Odur ki, 2002-ci ildə Lənkəran şəhər Xarici Dillər Təmayüllü Gimnaziya məktəbini bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Mənəvi aləmindən qaynaqlanan yurdsevərlik, vətənpərvərlik, insanlığın zinəti sayılan saf, ülvi dəyərlər tez də məktəbdə bu yeniyetməyə hörmət gətirir. Amalı döyüş meydanında düşməni əzib Qarabağın azadlığı olan Vüsal hərbin sirlərinə mükəmməl yiyələnmək üçün həvəslə öyrənir, bütün təlimlərdə əla döyüşçü keyfiyyətləri nümayiş etdirir. Vətənin, torpağın taleyini düşünən layiqli bir övlad kimi məktəbi başa vurur. Daha sonra Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzinin zabitləri təkmilləşdirmə kursunu tamamlayır. 2007-ci ildə leytenant rütbəsi alır, Gəncə şəhərində yerləşən N saylı hərbi hissəyə tağım komandiri gedir. Sevgisini Vətənin torpağına-daşına həkk edən Vüsal doğma Azərbaycana şərəflə xidmət göstərir, igidliyi, mərdliyi, dürüstlüyü, sədaqəti ona rəğbət qazandırır.

Köksündə qəhrəman ürəyi döyünən, Vətəni üçün yaşayan Vüsal iki ildən sonra baş leytenant rütbəsində xidmətini davam edir. Həmişə düşmənin müqəddəs Qarabağ torpaqlarının işğalına qarşı barışmaz mövqeyini ortaya qoyur, öyrənməklə bitik-tükənməz sevgi göstərdiyi peşəsinin kamil bilicisi olur. 2013-cü ildə kapitan rütbəsi qazanır, qaynar bölgələrdə qoşun xidmət rəisinin köməkçisi, kəşfiyyat rəisinin köməkçisi vəzifələrində Vətənin əsl keşikçisinə dönür. Bütün tapşırıqların öhdəsindən layiqincə gəlir, xalqına qəlbən bağlı bir igid olaraq xidmət etdiyi hərbi hissədə tabeliyində olan əsgərlər, zabitlər arasında ruh yüksəkliyi yaradır, onlarda Vətənə, torpağa məhəbbət hissləri aşılayır.

İgid kapitan 2020-ci ilin sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsinə, canından əziz tutduğu doğma Azərbaycanın ən çətin məqamında döyüşən cəbhəyə birinci yollanır. Suqovuşanın erməni faşistlərdən təmizlənməsi naminə cəsarətlə odun-alovun içinə atılır. Düşmənlə son gülləsinə qədər döyüşüb xeyli canlı qüvvəsini, çox sayda döyüş texnikasını məhv edir. Və sentyabrın 28- də sinəsini Vətənə tuşlanan güllərə sipər etməklə adını tarixə yazır.

Rəşadət zirvəsindən gələcəyə bir igid boylanır. O, Vətən, torpaq uğrunda şəhid olan Lənkəranlı balası, dövlət tərəfindən "Vətən uğrunda" medala layiq görüldüyü Vüsaldır. Əvvəllər bir evin, indi isə böyük bir xalqın fəxr etdiyi igid oğuldur Vüsal...

***Zəfər Orucoğlu, AJB üzvü***



## Paşinyandan Şuşa etirafı: “Bədbəxt və qaranlıq şəhər idi”

***“30 il ərzində Şuşaya nə qədər sərmayə qoyulmuşdu? Baden-Badenə qoyulan sərmayə ilə Şuşaya qoyulan sərmayəni müqayisə edək? (Xocalı qatili Serj Sarqsyanın Baden-Badendəki korrupsiya kapitalı nəzərədə tutulur - red.)”.***

Bu sözləri Ermənistanın Baş naziri Nikol Paşinyan müxalif blokdan olan deputat Tiqran Abraamyanın “Şuşada 30 ildə niyə evlər tikilmədi. Pul yox idi? Yoxsa nə?” sualına cavabında deyib.

Paşinyan Litvada erməni diasporu ilə görüşü zamanı səsləndirdiyi “Şuşa bədbəxt və qaranlıq şəhər idi” sözlərinin üzərində dayandığını qeyd edib:

“Gəlin bu rəqəmləri müqayisə edək, yoxsa buna dəyməz? Bu suallarla nə axtarırsınız? Yoxsa sizə elə gəlir ki, Şuşada yalnız siz olmusunuz? Mən yox idim, başqa insanlar yox idi və heç kim orada vəziyyətin necə olduğunu görmədi? Sanki paralel reallıqlarda yaşayırıq. Bəli, dediklərim doğrudur”.

## Papa kilsələrdə uşaqların cinsi istismarından danışdı - "Hamımız utanırıq"

***Roma Papası Fransisk 1950-ci ildən bu yana Fransadakı kilsələrdə 216 min uşağın cinsi istismara məruz qalmasına münasibət bildirib.***



Unikal.org xəbər verir ki, o, bundan utanc hissi duyduğunu dilə gətirib. ”Yaşadıqları travmalara görə məyusluğumu və acımı bildirmək istəyirəm. Kilsənin çox uzun müddətdir zərərçəkənlərin səsini eşitməkdə uğursuz olmasına görə utanıram. Hamımız utanırıq. Onlar üçün dua edirəm. Tanrıya bu utanclara görə dua edirəm. Çünki utanc vaxtıdır”, - deyə Papa vurğulayıb. Qeyd edək ki, Fransız Katolik Kilsəsindəki uşaq istismarlarını araşdıran müstəqil komissiya 1950-ci ildən bəri minlərlə pedofiliya faktının qeydə alındığını bildirib.

## BMT-nin Əfqanıstan rəsmisi: "Ölkə iqtisadiyyatı çökmək üzrədir"

***Dünya birliyi Əfqanıstandakı iqtisadi böhranı həll etmək üçün vəsait ayırmalıdır, vəziyyət məhvolmağa doğru gedir.***

APA TASS-a istinadən xəbər verir ki, bunu BMT-nin Dünya Ərzaq Proqramının Əfqanıstan üzrə direktoru Meri-Ellen Makqroarti video bağlantı vasitəsilə danışarkən bildirib.

“Əfqanıstanda iqtisadiyyat çökmək üzrədir. Nağd pul böhranı, banklar qapıları bağlayır, qənaət əhalə üçün əlçatmazdır. Vəziyyət getdikcə pisləşir, qış yaxınlaşır. Mən beynəlxalq ictimaiyyəti resurslarla yardım gösərməyə çağırıram”, - Makqroarti belə deyib.

# İŞİD-in öldürməyə çalışdığı, Əsədlə görüşən məşhur SİRLƏRİ AÇDI

***”Suriya prezidentinə heç kimin yaxın dura bilmədiyi dövrdə onunla müsahibə etdim, hətta bəzi məqamlarda ona provokativ suallar verməkdən çəkinmədim”.***

“Unaikal” bildirir ki, bu sözləri Publika.az-a müsahibəsindədünya şöhrətli jurnalist Həsən Heydər Diab deyib.

***- Cənab Diab, bu günlərdə Şuşaya səfər etdiniz. Nə hiss etdiniz?***

- Şuşa tarixi əhəmiyyətli mədəniyyət mərkəzidir. Şəhərin vəhşicəsinə dağıdılması məni çox kədərləndirdi. Bunu ancaq sivilizasiyadan xəbərsiz barbarlar edə bilərdi. Bir şəhərin mədəniyyətini talan qoymağın bir adı var - ermənilik. Bosniyanın qədim Mostar şəhərini yer üzündən silməyə çalışanlar Haaqa Beynəlxalq Məhkəməsinin qərarı ilə 20 il azadlıqdan məhrum ediliblər. Təəssüf ki, Şuşanın qatilləri qanun qarşısında hələ ki, məsuliyyətə cəlb olunmayıblar. Təbii ki, ən önəmlisi odur ki, Şuşa artıq azad olunub. Əminəm ki, o, işğaldan əvvəlki dövrdən də gözəl olacaq. Avtomagistrallar, yollar salınır. Xalqınızın hər bir üzvü Şuşaya xüsusi həssaslıq və məhəbbətlə yanaşır. Mən hərbi jurnalistəm, müharibə bölgələrində çox oluram. Bəzi ölkələr 20 ildir ki, savaşdan çıxıb. Amma yenidənqurma və bərpa işləri hələ də görülməyib. Şuşaya səfərim mənim üçün çox önəmli idi. Elə orada olanda söz verdim ki, ölkəmə qayıdandan sonra bəyənsələr də, xoşlarına gəlməsə də, yenə həqiqəti dünyaya yayacam.

***- Təşəkkür edirəm. Bu günlərdə ”TÜRKSOY Media Mükafatı” ilə təltif olundunuz. Təbrikimi qəbul edin və təbii ki, təəssüratlarınızı öyrənmək istəyirəm...***

- Jurnalist vicdanlı olmalıdır. Gördüyünü yalansız çatdırmalıdır. Sözün açığı, jurnalist kimi Qarabağ mövzusu məni xüsusi maraqlandırmayıb. Çünki əsas maraq dairəm Yaxın Şərqdir. Amma xarici mətbuatda Azərbaycan barədə neqativ məqalələri oxuduqca sanki bu haqsızlığa dur demək istədim. Ermənilər bu müharibəyə xristian-müsəlman savaşı adı verərək beynəlxalq ictimaiyyətin fikrini yanlış yöndə istiqamətləndirdikcə jurnalist missiyamı yerinə yetirməyə borclu olduğumu anladım. Xatırlayırsınızsa, bəzi mətbuat orqanları Azərbaycanı cihadda günahlandırırdı. Əslində isə Azərbaycan öz torpağını 30 illik işğaldan azad etməyə çalışırdı və buna nail oldu. Çünki beynəlxalq qanunla buna haqqı çatırdı. Çünki tək həqiqət budur. Necə ki, Xorvatiya serblərin işğalı altında olan ərazisini azad etməli idi. Xorvatiyanın ən çox reytinqə sahib olan media orqanları ilə əməkdaşlıq edirəm. Bu gün dünya mətbuatının söz azadlığı problemi var. Hər dəfə Azərbaycanla bağlı xəbərlər paylaşdıqca Balkanlarda fəaliyyət göstərən erməni icmaları baş redaktoruma şikayətlər ünvanlayırdılar. Hətta bəziləri məni təhdid edirdilər. Mən peşəmə sadiq insanam. Heç vaxt qərəzli xəbər paylaşmamışam, bundan sonra da paylaşmayacam. Axı necə susa bilərəm? Qarabağın ölüləri də məzarda rahat uyuya bilmirlər. Erməni barbarları hətta qəbirləri dağıdıb ölülərin sümüklərini ətrafa töküblər. Kəllə sümüklərinin, insan skeletlərinin yanında addımlamaq böyük dəhşət idi. Düşünürəm ki, bu, nəinki İslama görə, bütün inanclara görə ağır günahdır. İnanın ki, şokda idim. Nigaranlıq və ağrıdan başqa heç nə hiss etmirdim.

***- Cənab Diab, Suriya prezidenti ilə məşhur müsahibənizdən danışa bilərik?***

- Jurnalistika inad deməkdir. Ruhdan düşməyə haqqın yoxdur. Ümumiyyətlə, jurnalistikada ”yox” anlayışı yoxdur. Müsahibimdən razılıq alanadək ruhdan düşmürəm. Suriya Prezidenti Bəşər Əsədlə də eyni hal baş verdi. İki ilə yaxın prezidentin elektron ünvanına məktublar yazmağa davam elədim. Bu müddətdə heç yorulmadım, istəyimdən dönmədim. Müharibədən 3 ay sonra Suriyaya səfər edən ilk əcnəbi jurnalistlər siyahısında idim. Heç vaxt müharibə haqda yanlış məlumat paylaşmamışdım. Bəşər Əsədin komandasında çalışan hər kəs məni yaxşı tanıyırdı. Suriya prezidentinə heç kimin yaxın dura bilmədiyi dövrdə onunla müsahibə etdiyim, hətta bəzi məqamlarda ona provokativ suallar verməkdən çəkinmədiyim üçün özümlə qürur duyuram. Müsahibəni dünyanın 180 ölkəsinin nəhəng informasiya agentlikləri də yayımladı. Tanınmış jurnalist Kristian Amanpur Ağ Evin önündə müsahibəmi oxuyub şərh edirdi. Emmanuel Makron da daxil olmaqla bir sıra dünya liderləri Əsədlə söhbətimiz haqda fikirlərini bölüşməyə başladılar. Amma bundan sonra zərrə qədər də dəyişmədim. Yenə eyni həssaslıq və inadla yeni həmsöhbətlər qazanıram. Ən sadə vətəndaşdan dünya liderlərinədək eyni həssaslıqla yanaşıram. Jurnalistikanın xarakteristikası da budur.



***- Növbəti sualım da bununla bağlı idi. Məni qabaqladınız. Jurnalistikanın tərifi, yaxud vacib məqamları varmı?***

- Həyati təhlükən də olsa belə, hadisələrə obyektiv yanaşmalısan. Mən Livanın Beyrut şəhərində anadan olmuşam. 2006-cı ildə Livanla İsrail arasında müharibə başladı. Sonra İsrail ordusu Beyrutu bombalarla atəşə tutdu. Doğma şəhərimi tərk etmədən emosiyalarımı kənara qoyub obyektiv məlumat yaymağa başladım. Bəzi həmkarlarım buna görə məndən inciyirdilər. Lakin bildirdim ki, heç bir tərəfin yanında olmadan qərəzsiz xəbər paylaşmalıyam. Bəli, bütün reportajlardan sonra bir kənara çəkilib ağlayırdım. Doğulub böyüdüyüm şəhərim darmadağın edilmişdi. Amma bu, mənim şəxsi kədərim idi. Obyektivliyimə görə İŞİD-in terrorçuları məni ölümlə hədələyirdilər. Mənimlə də kifayətlənməyib, ailəmi təhdid edirdilər. Məhz buna görə 4 il polis nəzarətində yaşadım. Amma qorxum vicdanımı üstələmədi. Jurnalist həkimdir. Dostunu da, düşmənini də səhih informasiya ilə sağaldıb sülhə dəvət etməlidir.

***- Ümumiyyətlə, dünyanın qaynar nöqtələrinə səfər edirsiniz, qlobal problemlərə toxunursunuz. Əfqanıstanda baş verənlərə dəfələrlə münasibət bildirmisiniz. Bu mövzuya da toxunmağınızı istərdim.***

- Demək olar ki, bütün müharibə nöqtələrində olmuşam. Əfqanıstana gələndə isə şübhəsiz, ABŞ və NATO üçün böyük zərbə oldu. Hələ 2001-ci ildə ABŞ-ın prezidenti olmuş Corc Buş ”Əl-Qaidə”nin törətdiyi terrordan sonra Əfqanıstandakı taliblərə qarşı hərəkətə keçdi. Müharibəyə 2 trilyon dollar xərclədi. Minlərlə günahsız insan bu müharibənin qurbanı oldu. Həmin dövrdən 20 il vaxt keçib. ”Taliban” və ”Əl-Qaidə”ni məhv etmək əvəzinə, dünya üstəlik İŞİD-lə də mübarizə aparır. ABŞ Əfqanıstanı tərk edərkən dəhşətli mənzərələrə şahid olduq. İllərdir demokratiyaya ümid edib çarəsizliyin son həddinə çatan əfqan xalqı ölkəsindən qaçmaq üçün hər yola əl atmağa başladı. Həyatı bahasına təyyarənin təkərlərinə sarılıb Əfqanıstandan çıxanların faciəvi ölümünü izlədik. Demokratik dünya sivilizasiyasının ən böyük utancı bilirsiniz nədir? ”Taliban”ın qələbəsini qəbul edib onlarla danışıq masasına oturmaq. Yaxşı, gəlin, görək, müasir dünya İraq və Suriyada sülhə nail oldumu? Əlbəttə yox! Artıq dünya anlamalıdır ki, silah gücünə sülhə nail olmaq mümkün deyil. Demokratiya hər bir millətin özünün qərar verəcəyi anlayışdır. Bəzi həmkarlarım deyir ki, Ben Laden sağ olsaydı, Amerikanın bu çarəsizliyinə sevinərdi. Bilmirəm. Ağır məqamdır.

***- Gözəl ölkəniz barədə bizə məlumat versəniz, sevinərəm.***

- 40 ildir ki, Xorvatiyada yaşayıram. Dünyanın ən gözəl adaları, dənizi burada yerləşir. Ən məşhur ulduzlar istirahət üçün Xorvatiyanın Dubrovik şəhərini seçirlər. İnsanları, dağları, çayları... Bu möcüzələr haqda uzun danışmaq istəmirəm. Çünki elə söhbətimiz boyu sizə subyektiv fikirlərdən qaçdığımı bildirirəm. Ölkəmi yaxından tanımaq istəyənləri həmişə dəvət edirəm ki, gəlib gözləri ilə görsünlər.

# "PSJ ilə danışıqlar aparırıq" - Mbappenin anası



***PSJ-nin futbolçusu Kilian Mbappenin anası Fayza Lamari oğlunun gələcəyi haqda danışıb.***

O, "Le Parisien"ə açıqlamasında Paris təmsilçisi ilə müqavilənin müddətini uzatmaqla bağlı danışıqlar apardığını deyib: "Hazırda PSJ ilə danışıqlar aparırıq. Hər şey yolunda gedir. Hətta bazar ertəsi Leonardo ilə danışıb. Görək, nəticə necə olacaq. Dəqiq olan odur ki, o, Çempionlar Liqasının kubokunu qazanmaq üçün sonuna qədər çalışacaq. Kilian özünü məmnun hiss etməlidir. Əgər xoşbəxt deyilsə, karyerasını başa vurduğunu söyləyə bilər. Əslində bunu tez-tez deyir (gülür)".

Qeyd edək ki, Mbappeni "Real" da transfer etmək istəyir. Hətta Madrid klubunun 22 yaşlı oyunçuya ilkin müqavilə təklif etdiyi bildirilir. Xatırladaq ki, fransalı oyunçunun PSJ ilə hazırkı müqaviləsi 2022-ci ilin yayı başa çatır.

# Tanınmış qapıçı üçün mövsüm bitdi

***"Ayaks"ın qapıçısı Martin Stekelenburq üçün mövsüm erkən başa çatıb.***

Apasport.az xəbər verir ki, bu barədə Amsterdam klubu məlumat yayıb.

39 yaşlı qolkiper bud nahiyəsindəki zədə səbəbindən avqustdan bəri yaşıl meydanlardan uzaq qalıb. Müalicə nəticə verməd iyi üçün Niderland millisinin sabiq qapıçısı əməliyyat olunacaq. "Ayaks"ın tibbi heyəti futbolçunun mövsümün sonuna qədər komandasına kömək etmək şansının minimum olduğunu açıqlayıb.

Qeyd edək ki, Martin Stekelenburq "Ayaks"a ötən il "Everton"dan keçib.



# Qətərin DÇ-2022-yə xərclədiyi məbləğ bəlli oldu



***Qətərin DÇ-2022-yə xərclədiyi vəsaitin məbləği bəlli olub.***

Apasport.az saytının məlumatına görə, Asiya ölkəsi mundial üçün təxminən 200 milyard dollar xərcləyib.

Bu məbləğ yeni stadionların, metro, hava limanlarının tikintisinə, həmçinin şəhər və limanın salınmasına lazım olub. Asiyalılar ən yaxşı dünya çempionatını təşkil etmək niyyətində olduğundan xərc belə böyük olub.

Qeyd edək ki, sayca 22-ci dünya çempionatı 2022-ci il noyabrın 21-dən dekabrın 18-dək 32 komandanın iştirakı ilə keçiriləcək.

# Rafael Ağayevin ayağı sındı - Şəkil

***Karate üzrə Olimpiadanın gümüş mükafatçısı, beşqat dünya və onbirqat Avropa çempionu Rafael Ağayev BƏƏ-nin Dubay şəhərində keçiriləcək dünya çempionatında iştirak edə bilməyəcək.***

"Unikal" Oxu.Az-a istinadla xəbər verir ki, tanınmış idmançımız fərdi şəkildə məşq edərkən sol ayağı burxularaq sınıb.

Bu səbəbdən də onun 16-21 noyabrda keçiriləcək dünya çempionatında iştirak etməyəcəyi dəqiqləşib.

Rafael Ağayev bu ay Moskvada keçirilmiş Karate1 Premyer Liqa turnirinə də qatılmamışdı.

# "Barselona"nın 17 yaşlı futbolçusundan yeni rekord



***"Barselona"nın gənc futbolçusu Xavi ötən gün İspaniya millisinin heyətində debüt edib.***

"Unikal" xəbər verir ki, baş məşqçi Luis Enrike 17 yaşlı yarımmüdafiəçiyə Millətlər Liqasının yarımfinalında İtaliya ilə matçda şans verib. O, meydana start heyətdə çıxıb və 84-cü dəqiqədə əvəzlənib. Qavi qarşılaşmada yaxşı oyunu ilə seçilib.

Həmçinin Qavi bu görüşdə iştirak edərək İspaniya millisində oynayan ən gənc futbolçu adını qazanıb (17 yaş 62 gün). Daha əvvəlki rekord 1936-cı ildə yığmanın formasını geyinən Anhel Zubeytaya məxsus idi. 3-cü yerdə isə "Barselona"nın digər futbolçusu Ansu Fatidir (17 yaş 308 gün).

Qeyd edək ki, ötən gecə İspaniya İtaliya üzərində 2:1 hesablı qələbə qazanaraq finala yüksəlib. Komandanın həlledici görüşdəki rəqibi bu gün keçiriləcək Belçika - Fransa matçının qalibi olacaq.

# Avqustun 20-i nokauta düşdü, xəstəxanada öldü

***ABŞ-də MMA döyüşçüsü Castin Tornton dünyasını dəyişib.***

Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, o, avqustun 20-i ABŞ-ın Missisipi ştatının Biloxi şəhərində keçirilən BKFC 20 turnirində Dillon Kleklərlə döyüş zamanı aldığı zədədən sonra nakauta düşüb. Cəmi 18 saniyə çəkən döyüşdən sonra Castin ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Ancaq 38 yaşlı döyüşçünün həyatını həkimlər xilas edə bilməyib.

# "İrlandiya millisi üçün həyatı çətinləşdirə bilərik" - De Byazi

***"Bütün diqqətimi İrlandiya ilə oyuna yönəltmişəm, gələcəklə bağlı düşünmürəm. İnanıram ki, oyuna intensivliyi, ürəyi və təşkilatlanmış işi ortaya qoysaq, İrlandiya üçün həyatı çətinləşdirə bilərik".***

Qol.az xəbər verir ki, bu sözləri millimizin baş məşqçisi Canni De Byazi DÇ-2022-nin seçmə mərhələsində İrlandiya ilə oyun öncəsi "İndependent.ie" nəşrinə açıqlamasında deyib.

O, Dublində İrlandiya ilə 1:1 hesablı heç-heçə etdikləri görüşdə nəticənin ədalətli olduğunu bildirib: "Amma son dəqiqələrdə qol buraxmaq heç də xoş deyil. İrlandiya keyfiyyətli gənc oyunçuları olan yaxşı komandadır. Onların bir çoxu İngiltərə Premyer Liqasında oynayır. Buna görə də bizim üçün hər zaman böyük diqqətlə qarşılanacaq rəqibdir".

Qeyd edək ki, oktyabrın 9-u Bakı Olimpiya Stadionunda keçirilən Azərbaycan - İrlandiya görüşü saat 20:00-da başlayacaq.

# Xayme Romero bərpa məşqlərinə başladı

***"Qarabağ"ın yarımmüdafiəçisi Xayme Romero fizioterapiyaya başlayıb.***

Bu barədə ispaniyalı futbolçu instaqram səhifəsi vasitəsilə məlumat yayıb.

Konfrans Liqasının qrup mərhələsinin I turunda "Bazel"lə qarşılaşmada sol dizindən ağır zədə alan Romero əməliyyatdan sonra bərpa prosesinə start verib. Onun təxminən 6 ay yaşıl meydanlardan uzaq qalacağı açıqlanıb.